# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

12 iyun 2026-cı il, cümə
№ 101 (7168)
Qiymət 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

## Azərbaycana qarşı aparılan kampaniyalar fiaskoya məhkumdur



## Parisin Qafqaz narahatlığı...

Bax səh. 2

## Siyasi dialoq davam edir...

Bax səh. 4



## Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi



Bax səh. 3

### Qeyri-neftə əsaslanan inkişaf göstəriciləri

Bax səh. 5

### Qlobal investorlar narahatdır

Bax səh. 5

### Ermənistan KTMT-dən əl çəkir, KTMT isə...

Bax səh. 6

### Kibertəhlükəsizlik: Rəqəmsal dünyanın görünməyən müharibəsi

Bax səh. 7



## Bahalı raketlərin ucuz qənimi...

Bax səh. 7



## Rusiyaya qarşı 21-ci sanksiyalar paketi gündəmdə

Bax səh. 6



# Azərbaycana qarşı aparılan kampaniyalar fiaskoya məhkumdur

**Tarix göstərir ki, bir çox hökumətlər daxildə yaranan narazılıqları azaltmaq üçün diqqəti xarici məsələlərə yönəltməyə çalışıblar. Azərbaycanın hədəf seçilməsi də təsadüfi deyil. Çünki son illərdə Bakı Fransanın uzun müddət toxunulmaz hesab etdiyi mövzulara diqqət çəkə bilib. Neokolonializm, dənizaşırı ərazilərdə yaşayan xalqların hüquqları, müstəmləkə irsinin nəticələri və milli azlıqların problemləri ilə bağlı məsələlərin beynəlxalq müzakirəyə çıxarılması Paris üçün narahatlıq yaradan amillər sırasındadır. Azərbaycanın bu istiqamətdə artan fəallığı Fransanın formalaşdırmağa çalışdığı beynəlxalq imicə müəyyən suallar yaradır**

## Parisin Qafqaz narahatlığı...

Azərbaycanın son illərdə əldə etdiyi siyasi, iqtisadi və diplomatik uğurlar beynəlxalq aləmdə ölkənin nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Xüsusilə Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallıqlar Azərbaycanın regional lider kimi mövqeyini daha da möhkəmləndirib. Regionda sülhü bərqərar edən, münaqişəyə son qoyan, separatizmin kökünü qazıyan, regional kommunikasiyaların, nəqliyyat dəhlizlərinin rentabelliyinin artmasına səy göstərən, işğaldan azad edilmiş torpaqlarda qısa zamanda yenidənqurma və abadlıq işləri görən, bununla da dünyaya yeni dövrün şəhərsalma standartlarını təqdim edən Azərbaycan birmənalı şəkildə bölgənin lideri statusunu qazanıb. Bu gün Bakı yalnız öz milli maraqlarını təmin edən siyasət yürütmür, eyni zamanda regionun gələcəyini müəyyənləşdirən əsas aktorlardan biri kimi çıxış edir. Bakıda keçirilən beynəlxalq forumlar, qlobal əhəmiyyətli tədbirlər və yüksək səviyyəli görüşlər isə dünya ictimaiyyətinə bu reallıqları yerində müşahidə etmək imkanı yaradır. Azərbaycanın təşəbbüsləri təkcə regional deyil, həm də beynəlxalq təhlükəsizlik, enerji əməkdaşlığı və çoxtərəfli diplomatiya baxımından mühüm əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən ölkənin artan nüfuzu və müstəqil siyasəti bəzi dairələrdə ciddi narahatlıq yaradır. Xüsusilə uzun illər bölgədə təsir imkanlarını qorumağa çalışan müəyyən dövlətlər Azərbaycanın güclənməsini və yeni siyasi reallıqlar formalaşdırmasını öz maraqları baxımından arzuolunmaz hesab edirlər. Son dövrlərdə müşahidə olunan anti-Azərbaycan kampaniyalarının kökündə də məhz bu amillərin dayandığı açıq görünür.

**Bakı qlobal neokolonializmə qarşı effektiv mübarizə aparır**

Azərbaycan son illərdə yalnız regional siyasətin deyil, həm də beynəlxalq münasibətlər sisteminin mühüm mövzularından biri olan neokolonializmə qarşı mübarizənin fəal iştirakçısına çevrilib. Azərbaycan beynəlxalq hüququn aliliyinin təmin olunmasını, dövlətlərin suverenliyinə hörmət edilməsini və ikili standartların aradan qaldırılmasını xarici siyasətinin əsas prioritetlərindən biri kimi təqdim edir. Son illərdə Bakı tərəfindən təşkil olunan beynəlxalq konfranslar, müzakirə platformaları və müxtəlif təşəbbüslər neokolonializm mövzusunun qlobal gündəmdə daha geniş yer almasına şərait yaradıb.

Maraqlıdır ki, neokolonializm dedikdə əsas diqqət Fransaya yönəlir - çünki Paris əsrlərdir ki, özünü insan hüquqları və demokratiya dəyərlərinin müdafiəçisi kimi təqdim etməyə çalışsa da, onun dənizaşırı ərazilərində baş verən proseslər, yerli xalqların hüquqları ilə bağlı reallıqlar və müstəmləkə keçmişi beynəlxalq müzakirələrin predmetinə çevrilməkdədir. Azərbaycanın bu məsələləri beynəlxalq platformalarda qaldırması Fransanın ciddi narahatlığına səbəb olur.

Məhz bu səbəbdən son illər Fransa siyasi dairələri və ona yaxın media strukturları tərəfindən Azərbaycana qarşı sistemli kampaniyaların intensivləşdiyi müşahidə edilir. Müxtəlif bəhanələrlə Bakının beynəlxalq nüfuzuna zərbə vurmağa yönəlmiş informasiya hücumları, siyasi təzyiq cəhdləri və qərəzli bəyanatlar bu siyasətin tərkib hissəsi kimi görünür. Lakin reallıq ondan ibarətdir ki, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi və artan diplomatik imkanları bu cür kampaniyaların effektivliyini əhəmiyyətli dərəcədə azaldır.

**Makron diqqəti daxili problemlərdən yayındırmağa çalışır**

Azərbaycana qarşı aparılan informasiya kampaniyalarının intensivləşdiyi dövr Fransanın daxili və xarici siyasətdə ciddi çətinliklərlə üzləşdiyi mərhələyə təsadüf edir. Prezident Emmanuel Makron son illərdə həm ölkə daxilində, həm də beynəlxalq arenada əvvəlki siyasi təsir imkanlarını qorumaqda çətinlik çəkir. Fransa cəmiyyəti iqtisadi problemlər, sosial narazılıqlar və siyasi qütbləşmə fonunda ciddi sınaqlarla qarşı-qarşıya qalıb. “Sarı jiletlilər” hərəkatından başlayaraq pensiya islahatlarına qarşı kütləvi etirazlara qədər müxtəlif hadisələr Makron administrasiyasının ictimai dəstəyinə mənfi təsir göstərib.

Bununla yanaşı, miqrasiya problemləri, təhlükəsizlik məsələləri və sosial bərabərsizliklə bağlı müzakirələr də Fransa hökumətinin üzərindəki təzyiqi artırır. Rəy sorğuları göstərir ki, hakimiyyət institutlarına inam əvvəlki dövrlərlə müqayisədə xeyli zəifləyib. Belə şəraitdə xarici siyasət mövzularının daxili gündəmdə ön plana çıxarılması siyasi texnologiya baxımından yeni hal deyil. Tarix göstərir ki, bir çox hökumətlər daxildə yaranan narazılıqları azaltmaq üçün diqqəti xarici məsələlərə yönəltməyə çalışıblar.

Azərbaycanın hədəf seçilməsi də təsadüfi deyil. Çünki son illərdə Bakı Fransanın uzun müddət toxunulmaz hesab etdiyi mövzulara diqqət çəkə bilib. Neokolonializm, dənizaşırı ərazilərdə yaşayan xalqların hüquqları, müstəmləkə irsinin nəticələri və milli azlıqların problemləri ilə bağlı məsələlərin beynəlxalq müzakirəyə çıxarılması Paris üçün narahatlıq yaradan amillər sırasındadır. Azərbaycanın bu istiqamətdə artan fəallığı Fransanın formalaşdırmağa çalışdığı beynəlxalq imicə müəyyən suallar yaradır.

**Neokolonializm Fransanın dövlət siyasəti kimi...**

Məsələni iki real misal üzərindən təhlil edək - Fransa on illərdir Fransız Polineziyasına qarşı laqeyd, hegemon və beynəlxalq hüquq normalarına saymazlıq nümayiş etdirir. Yelisey sarayı Avropada və dünyada ədalət və bərabərlikdən dəm vurduğu halda, dənizaşırı müstəmləkələrində xalqların hüquqlarını tapdalayır. Bu yaxınlarda Nikaraquada keçirilən BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinin (C-24) növbəti regional seminarı çərçivəsində Fransız Polineziyasının (FP) prezidentinin rəsmi nümayəndəsi Mareva Lechat-Kitalongun kürsüdən səsləndirdiyi fikirlər bu deyilənləri təsdiqləyir. O, çıxışında Fransanın beynəlxalq hüququ heçə saydığını və beynəlxalq öhdəliklərdən hansı yollarla qaçdığını ifşa edib. Qeyd edək ki, hələ 2013-cü ildə (17 may) BMT Baş Assambleyası Fransız Polineziyasının dekolonizasiya edilməli olan ərazilərin rəsmi siyahısına daxil edib. Bu qərar o dövrdə dünya birliyi tərəfindən tarixi ədalətin bərpası kimi qəbul edilsə də, bu günə qədər rəsmi Paris bu məsələdə bir addım belə atmayıb. Aradan 13 il keçsə də, nəinki dekolonizasiya, hətta bu istiqamətdə rəsmi siyasi dialoqu başlatmaq üçün heç bir təşəbbüs irəli sürülməyib.

Və ya Yeni Koledoniya misalı... Əsrlərdir Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Yeni Koledoniya özünün azadlığı uğrunda mübarizə aparır. Sakit okeanın cənubunda yerləşən və əhalisinin təxminən 40 faizini yerli kanaklar təşkil edən ölkə öz müqəddəratını təyin etmək üçün səy göstərir. Xatırladaq ki, 1988-ci ildə imzalanan Matinyon Sazişinə əsasən 10 il sonra referendum keçirilməli idi - lakin Fransa bu müddəti sonradan məskunlaşan fransızların gücünü möhkəmləndirmək üçün istifadə etdi. 1998-ci ildə imzalanmış Numea Sazişi isə 2018-2022-ci illər arasında üç müstəqillik referendumunu nəzərdə tutaraq Yeni Kaledoniyanın dekolonizasiya olunması üçün yeni fürsət kimi təqdim edilirdi. Lakin Fransa bu proseslərə öz maraqları naminə təsir göstərdi. Seçki şərtləri, xüsusilə seçici siyahılarının genişləndirilməsi, sonradan məskunlaşan fransızlara səsvermə hüququnun verilməsi kanakların təsirini zəiflətdi. Ən böyük etirazlar 2021-ci ildə COVID-19-un kanak icmasına dağıdıcı təsiri ilə başladı. Belə ki, referendumu təxirə salmaq çağırışlarına baxmayaraq, Fransa səsverməni keçirdi. Kanakların kütləvi boykotu ilə nəticələnən referendumun nəticəsi Fransanın tərkibində qalmaq istiqamətində oldu. Lakin bu nəticə yerli kanak xalqı tərəfindən qeyri-legitim hesab edildi. Beləliklə, “dekolonizasiya” adı altında təqdim olunan Numea Sazişi, əslində, demokratik prosesi manipulyasiya etmək və kolonial status-kvonu saxlamaq üçün alətə çevrildi.

Bütün bu reallıqları dünya ictimaiyyətinə məhz Azərbaycan təqdim etdi. 2023-cü ilin iyulunda yaradılan  Bakı Təşəbbüs Qrupu Fransanın bu siyasətinə qarşı müxtəlif yerli və beynəlxalq səviyyəli hüquqi fəaliyyət aparır.

**Makron Ermənistandakı son seçkidə necə uduzdu?**

Fransanın Bakıya qarşı “qəzəbi”nin bir səbəbi də Azərbaycanın Fransanın illərlə qurduğu oyunları darmadağın etməsi, Parisin Cənubi Qafqaza yönəlik işğalçı planlarını ifşa etməsidir. Bəli, məhz işğalçı planlarını... Bir qədər geriyə baxsaq, 2023-cü ilin sentyabrında Azərbaycan haqlı olaraq separatizmə qarşı antiterror tədbirləri reallışdırdığı zaman rəsmi Paris “yardım” adı altında karvan yaradaraq, Paris merini də həmin karvana “sarvan” təyin edərək Qarabağa yollamağa çalışmışdı. Bununla özünü Ermənistana və ermənilərə daha “məhrəm” göstərməyə çalışan Parisin alt planları fərqli idi - Makron hakimiyyəti məhz Ermənistan üzərində tam dominantlıq yaradaraq Cənubi Qafqazda gedən proseslərə, xüsusilə də sülh fəaliyyətinə təsir etməyə çalışırdı. Nəticədə isə Paris Bakıdan layiqli cavabı aldı - həm Qafqazda, həm də Avropada.

**Makron Azərbaycana necə məğlub oldu?**

Azərbaycan Fransanın danışıqlarda iştirakına morotorium qoyaraq Makronu yerində oturtdu.

Bu ilin mayında Avropa Siyasi Birliyinin İrəvandakı Zirvə toplantısını yenidən növbəti şansa çevirməyə çalışan Makron yeni bir cəhdə əl atdı - tələm-tələsik İrəvana gələrək Paşinyana “seçki proqramı” təqdim etdi. Hətta çıxışında da seçki təbliğatı üçün tezislər verdi - onun iddiasına görə, “Ermənistan Avropaya (Fransaya) intqerasiya edəcək” tezisi Paşinyana seçki qələbəsi gətirəcəkdi. Amma bu da baş vermədi - təbliğat dövründə Paşinyan Makronun bu tezisinin də fiaskoya uğradığını görüb, Azərbaycanın sülh və əməkdaşlıq strategiyasına müraciət etdi. Beləliklə, Makronun bu dəfəki planı da alt-üst oldu. Bəlli oldu ki, Ermənistan cəmiyyəti Fransa köləliyini yox, Bakının əməkdaşlıq planlarını seçir. Bu isə Fransanın Azərbaycana qarşı növbəti məğlubiyyəti kimi tarixə yazıldı. Makronun bu “gedişi” şahmat taxtasında onu daha da pis vəziyyətə saldı - məhz Ermənistan, Qarabağ kartı üzərindən ölkəsində yenidən siyasi imic qazanacağına ümid edən Fransa prezidentinin bu dəfə də əli havada qaldı.

**Reallıq qarşısında məğlub olan qərəzli kampaniyalar**

Beləliklə, Fransanın Azərbaycana qarşı apardığı qərəzli siyasi və informasiya kampaniyaları uzunmüddətli perspektivdə uğur qazana bilmir, fiaskoya məhkum olur. Bu cəhdlər reallıqlara deyil, siyasi maraqlara və ikili standartlara əsaslanır. Azərbaycan regionda yaratdığı yeni təhlükəsizlik və əməkdaşlıq mühitini ardıcıl şəkildə möhkəmləndirir, beynəlxalq nüfuzunu artırır və müstəqil xarici siyasət kursunu davam etdirir. Bakının beynəlxalq hüquqa söykənən mövqeyi, qlobal təşəbbüslərdə fəal iştirakı və tərəfdaş ölkələrlə genişlənən əməkdaşlığı onun mövqelərini daha da gücləndirir. Məhz buna görə də Azərbaycana qarşı yönəlmiş kampaniyalar qərəzdən uzağa gedə bilmir - reallıqlar isə hər zaman özünü göstərir və faktlar, konkret nəticələr qərəzli yanaşmalar üzərində üstünlük qazanır...

*Pərviz SADAYOĞLU*

# Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi

















İyunun 11-də Nəsimi rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Azərbaycan Dillər Universitetinin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov qeyd edib ki, tariximizin taleyüklü səhifələrindən biri olan Milli Qurtuluş Günü ölkəmizin gerçək müstəqilliyini və tənəzzüldən xilas olaraq tərəqqi mərhələsinə yüksəlməsini təmin edən tarixi dönüş nöqtəsi kimi yaddaşlara əbədi həkk olunub: "Sirr deyil ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş ölkəmiz ciddi daxili və xarici təhdidlərlə üzləşmişdi. Dərin iqtisadi və siyasi böhrandan əziyyət çəkən Azərbaycan Ermənistanın genişlənən hərbi təcavüzü fonunda regionda təcrid vəziyyətinə düşmüşdü. Belə bir mürəkkəb dönəmdə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı ağır sınaqlardan xilas etdi və gələcək inkişafın möhkəm təməllərini yaratdı".

YAP Sədrinin müavini vurğulayıb ki, 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin əsası qoyuldu: "Ulu Öndərin zəngin dövlətçilik təcrübəsi və uzaqgörən siyasəti sayəsində ölkədə sabitlik bərpa olundu, ictimai-siyasi proseslər sağlam məcraya yönəldildi, qanunun aliliyi təmin edildi və dövrün çağırışlarına uyğun milli inkişaf strategiyası uğurla həyata keçirilməyə başlandı. 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasəti Azərbaycan xalqına ən dəyərli milli sərvətimiz olan dövlət müstəqilliyini bəxş etdi, ölkəmizin demokratiya və sosial-iqtisadi inkişaf yolunda əmin addımlarla irəliləməsini, beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətinə çevrilməsini şərtləndirdi".

Tahir Budaqovun sözlərinə görə, 2003-cü ildə xalqımız Heydər Əliyev yoluna sədaqət nümayiş etdirərək cənab İlham Əliyevə yüksək etimad göstərdi: "Bu, Ümummilli Liderin müəyyənləşdirdiyi siyasətin alternativsizliyinə qətiyyətli inamın birmənalı ifadəsi idi. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirdi. Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirilməsi Azərbaycanı sürətli inkişaf yoluna çıxardı. İqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən ölkəmiz şanlı Zəfər zirvəsinə yüksəldi".



YAP Sədrinin müavini bildirib ki, Ulu Öndərin tükənməz dövlətçilik irsinin, o cümlədən Milli Qurtuluş məfkurəsinin yeni nəslə dolğun surətdə çatdırılmasında, Azərbaycan gəncliyinin milli maraqlara sadiq, yüksək vətəndaş məsuliyyətinə malik şəxsiyyətlər kimi yetişdirilməsində ali təhsil müəssisələrinin də üzərinə mühüm vəzifələr düşür: "Müasir dövrdə universitetlər yalnız peşəkar kadrlar hazırlayan elm və təhsil müəssisələri deyil, eyni zamanda, dövlətçilik irsinin, milli-mənəvi dəyərlərin, azərbaycançılıq ideologiyasının təbliğ olunduğu önəmli ictimai institutlardır. Bu xüsusda Azərbaycan Dillər Universitetinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Universitetdə gənclərin müasir biliklərə yiyələnməsi, xarici dilləri dərindən öyrənməsi, kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi ilə yanaşı, tarixi köklərə bağlı və dövlətçilik ənənələrinə sadiq vətəndaşlar kimi formalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılır".

Tahir Budaqov qeyd edib ki, müasir dövrdə gənclərin qarşısında duran əsas vəzifə yüksək bilik və bacarıqlara yiyələnmək, milli maraqları hər zaman üstün tutmaq və əzmkar fəaliyyəti ilə ölkəmizin gələcəyinə layiqli töhfə verməkdir: "Əminik ki, Milli Qurtuluşdan başlanan şanlı Zəfər yolu bundan sonra da xalqımıza tarixi nailiyyətlər qazandıracaqdır. Hər birinizi 15 İyun - Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edir, xalqımızın rifahı və ölkəmizin tərəqqisi naminə məqsədyönlü fəaliyyətinizdə uğurlar arzulayıram".

Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla çıxışında bildirib ki, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda vətəndaş müharibəsi təhlükəsinin qarşısını aldı. Onun sözlərinə görə, o vaxtkı vəziyyətdən xalqı xilas etməyi Heydər Əliyev kimi böyük şəxsiyyət bacara bilərdi: "Azərbaycanın müasir dövlətçilik tarixində 15 İyun - Milli Qurtuluş Günü xüsusi siyasi və tarixi əhəmiyyətə malikdir. Bu gün təkcə hakimiyyət dəyişikliyi və ya siyasi hadisə kimi deyil, Azərbaycan dövlətinin müstəqilliyini qoruyub saxlaması, parçalanmaq təhlükəsindən xilas olması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından taleyüklü mərhələ kimi qiymətləndirilir. Məhz 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı dərin böhrandan çıxararaq sabitlik, inkişaf və dövlət quruculuğu mərhələsinə gətirib çıxardı".

Kamal Abdulla qeyd edib ki, bu gün Azərbaycanın əldə etdiyi uğurların əsasında 1993-cü ildən başlanan dövlət quruculuğu siyasəti dayanır: "Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası nəticəsində ölkədə güclü dövlət institutları formalaşdı, sosial-iqtisadi inkişaf təmin edildi, ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə olundu. Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi kurs müasir dövrün çağırışlarına uyğun şəkildə davam və inkişaf etdirilərək yeni mərhələyə yüksəldildi. Azərbaycanın iqtisadi, siyasi və hərbi gücünün artması nəticəsində ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər, 2023-cü ildə ölkənin bütün ərazisində suverenliyin tam təmin olunması Ulu Öndərin əsasını qoyduğu dövlətçilik strategiyasının uğurlu nəticəsi kimi dəyərləndirilir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, bu Zəfər həm də ata vəsiyyətinin yerinə yetirilməsi, Azərbaycan xalqının tarixi ədalətinin bərpası idi".

Milli Qurtuluş Gününün milli birliyin təmin olunması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıdığını söyləyən K.Abdulla deyib ki, məhz bu gün Azərbaycan xalqının öz taleyini müəyyənləşdirdiyi, dövlətçiliyin xilası naminə doğru siyasi seçim etdiyi tarixi dönüş nöqtəsidir: "Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində mövcudluğunu davam etdirən Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atır, regionun aparıcı güc mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirir".

Kamal Abdulla Azərbaycan Dillər Universitetinin inkişafında da Ulu Öndər Heydər Əliyevin böyük xidmətlərinin olduğunu deyərək ali məktəbin professor-müəllim heyəti və tələbələrinin hər zaman dövlətçiliyə sadiq qaldığını vurğulayıb.

Çıxış edən Azərbaycan Dillər Universitetinin professoru Fərman Zeynalov bildirib ki, xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər Heydər Əliyev Azərbaycanı real təhlükələrdən qurtarmaqla yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi: "Ulu Öndərin gərgin fəaliyyəti, səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı".

Onun sözlərinə görə, Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafını, tarixin ən çətin sınaqlarından uğurla çıxmasını təmin edən Ulu Öndər Heydər Əliyev, sözün əsl mənasında, xilaskar və qurucu Lider rolunu oynadı: "Mübaliğəsiz demək olar ki, müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Bu əsərin təməl daşının qoyulduğu gün - 15 İyun tariximizin ən parlaq səhifələrindən biridir. Ümummilli Liderin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri də Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis yetişdirməsidir. Ulu Öndərin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz dinamik inkişaf edir, dünya siyasi arenasında müstəqil siyasət yürüdən ölkə kimi layiqli yer tutur, milli maraqlarımız qətiyyətlə tam şəkildə qorunur, - deyə F.Zeynalov vurğulayıb.

Azərbaycan Dillər Universitetinin 3-cü kurs tələbəsi Fəxriyyə Mirzəyeva çıxışında qeyd edib ki, Milli Qurtuluş Günü dövlətçilik tarixində dönüş nöqtəsi, Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi yolunda mühüm hadisə kimi yaddaşlara həkk olunub. Onun sözlərinə görə, bu gün biz müstəqil, güclü və inkişaf edən Azərbaycanda yaşayırıqsa, bunun təməlində məhz Ulu Öndərimizin hakimiyyətə tarixi qayıdışı dayanır: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurlu inkişaf yolunu davam etdirir. Azərbaycan gəncliyi üçün bu gün geniş imkanlar yaradılıb. Təhsil, elm, innovasiya, beynəlxalq əməkdaşlıq və sahibkarlıq sahələrində gənclərə göstərilən diqqət gələcəyin savadlı, peşəkar və vətənpərvər nəslinin formalaşmasına xidmət edir".

O bildirib ki, gənclər yalnız savadlı mütəxəssis olmaqla kifayətlənməməli, həm də bilik və bacarıqlarımızı daim inkişaf etdirərək, Azərbaycanın gələcək uğurlarında fəal iştirak etməlidir. "Mənim üçün bu tədbir həm də xüsusi mənəvi əhəmiyyət daşıyır. Çünki Yeni Azərbaycan Partiyasının sıralarına yeni qoşulmağım və partiya vəsiqəsi almağım bir gənc olaraq məni qürurlandırır .Etimadı doğrultmaq, dövlətçilik dəyərlərinə sadiq qalmaq, ölkəmizin inkişafı naminə fəal olmaq və Ulu Öndər Heydər Əliyevin ideyalarına, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətə dəstək vermək hər birimiz üçün böyük şərəfdir".

Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təqdim olunub.

# Siyasi dialoq davam edir...

## Prezident Administrasiyasında Qüdrət Həsənquliyev ilə görüş keçirilib

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev iyunun 11-də Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev ilə görüşüb.

Partiyanın Mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı ötən müddət ərzində əməkdaşlıq çərçivəsində birgə görülmüş işlər, ölkənin daxili siyasətində baş vermiş mühüm hadisələr qeyd olunub, habelə dünya və regionda müşahidə olunan tendensiyalar ətrafında fikir mübadiləsi aparılıb.

Bildirilib ki, müxalif siyasi partiyaların Milli Məclisdə təmsil olunması bilavasitə demokratik münasibətlərin təzahürü olmaqla yanaşı, konkret sahələr ilə bağlı qanunların hazırlanması prosesinə də müsbət təsir edir. Belə ki, bu sahədə müxtəlif yanaşmaların tətbiqi normayaratma fəaliyyətinin demokratikliyi və şəffaflığını təmin edir.

Görüşdə həmçinin bəzi beynəlxalq təşkilatlar tərəfindən ölkəmizə qarşı tətbiq olunan "ikili standartlar" və informasiya manipulyasiyaları ilə mübarizədə vətənpərvər qüvvələrin səfərbər olunması kimi mühüm məsələdə siyasi partiyaların müstəsna rolu vurğulanıb.

Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə ölkədə yeni siyasi konfiqurasiyanın formalaşması prosesinin ilk günündən etibarən, həmçinin 44 günlük Vətən müharibəsi zamanı və tarixi Qələbədən sonra ölkəmizdə yaşanan həmrəylik mühitinin, habelə siyasi sabitliyin qorunmasının strateji əhəmiyyəti vurğulanıb və sözügedən prosesdə siyasi partiyaların fəal mövqeyi təqdir olunub.

Aparılan fikir mübadiləsi çərçivəsində son illər ərzində aktiv şəkildə təşviq olunan siyasi dialoq mühiti sayəsində əldə olunmuş sağlam münasibətlərin davamlılığının qorunmasının zərurəti də qeyd olunub.



Dövlətçilik ənənələrinin və milli maraqların qorunması naminə həyata keçirilən bütün təşəbbüslərə öz sadiqliyini bildirən partiya sədri demokratik məzmunlu siyasi dialoq dəyərlərinin inkişafını hər zaman dəstəkləyəcəyini deyib.

Prezident Administrasiyasının rəsmisi görüşün sonunda milli maraqlara cavab verən fəaliyyətdə Ədalət, Hüquq, Demokratiya Partiyasına müvəffəqiyyətlər arzulayıb.

# Uşaqlar zərərli informasiyalardan qorunmalıdır

Hazırda bütün dünyada informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir. Bu inkişafın göstəricilərindən biri də sosial şəbəkələrin mövcudluğudur. Sosial şəbəkələr artıq həyatımızın bir hissəsinə çevrilib. Sosial şəbəkələrin faydası çox olsa da, problemli məqamlar da istisna deyil.

Sosial şəbəkələrin həyatın ayrılmaz hissəsi olduğu bir dövrdə, xüsusilə uşaqların ondan nəzarətsiz istifadə etməsinin qarşısı alınmalıdır. Yəni internet resursları, müasir texnologiyalar müsbət cəhətləri ilə yanaşı, insanların davranışlarına, düşüncəsinə, xüsusi ilə, uşaqların sosial-psixoloji inkişafına ziyan vura bilir. İnternet resurslarında etikaya, əxlaqa zidd paylaşımlar, yayımlanan bəzi filmlər, oyunlar uşaq və yeniyetmələrin düşüncəsinə, dünyagörüşünə mənfi təsir edir. Belə hallar yeniyetmələri təhsildən yayındırır, onları başqa zərərli vərdişlərə aludə edir. Hətta bəzi hallarda onların aqressiv davranmalarına və nəticə etibarilə qanunazidd hərəkətlərə yol vermələrinə səbəb olur.

Ona görə də, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi zəruridir. Bu baxımdan Milli Məclisdə müzakirəyə çıxarılmış qanun layihəsi əhəmiyyətlidir. Hazırda bu məsələ gündəmdədir və ictimai səviyyədə də müzakirə olunur. Yeri gəlmişkən, iyunun 10-da "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsinin ictimai müzakirəsi keçirilib. Tədbirdə müvafiq dövlət qurumları, media subyektləri və jurnalist təşkilatlarının səlahiyyətli nümayəndələri, həmçinin əlaqəli sahələr üzrə məsul şəxslər, rəqəmsal məzmun yaradıcıları və ekspertlər iştirak ediblər.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, İnzibati Xətalar Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda, eləcə də digər aidiyyəti normativ-hüquqi aktlarda dəyişikliklər edilməsi barədə qanun layihəsi, uşaqların virtual məkanda təhlükəsizliyinin təmin edilməsinə, bütövlükdə isə milli rəqəmsal ekosistemin hüquqi tənzimlənməsinə yönəlib. O vurğulayıb ki, həm universal etik normalara, həm milli maraqlarımıza, həm də qabaqcıl beynəlxalq hüquqi standartlara tam cavab verən bu dəyişikliklər milli informasiya mühitinin sağlamlaşdırılmasına və gələcək nəsillərin qorunmasına mühüm töhfə verəcək.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Elmir Vəlizadə müasir informasiya mühitində baş verən transformasiyalar, rəqəmsal platformaların cəmiyyət həyatına təsiri və bu sahədə hüquqi tənzimləmələrin əhəmiyyəti barədə fikirlərini bölüşüb. Qeyd olunub ki, informasiya təhlükəsizliyinin təmin edilməsi, vətəndaşların hüquqlarının qorunması və sağlam informasiya mühitinin formalaşdırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov rəqəmsallaşmanın sürətlə genişləndiyi şəraitdə informasiya təhlükəsizliyi məsələlərinin aktuallığından bəhs edib. Bildirib ki, rəqəmsal mühitdə istifadəçilərin hüquqlarının qorunması, məsuliyyətli davranışın təşviqi və təhlükəsiz informasiya ekosisteminin yaradılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi olduqca vacibdir.

Milli Kibertəhlükəsizlik Agentliyinin sektor müdiri Həvva Hüseynli təqdimatla çıxış edərək qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin əsas istiqamətləri barədə məlumat verib. Vurğulanıb ki, təklif olunan yeniliklər informasiya mühitində mövcud çağırışlara uyğun hüquqi mexanizmlərin təkmilləşdirilməsinə və rəqəmsal təhlükəsizliyin daha effektiv təmin olunmasına xidmət edir.

Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdir müavini Seymur Məmmədov rəqəmsal mühitin uşaqlar üçün mühüm inkişaf imkanları yaratmaqla yanaşı, real həyatları üçün qlobal miqyasda ciddi təhlükə və risklərlə də müşayiət olunduğunu bildirib. Qeyd olunub ki, uşaqların təhlükəsiz informasiya mühitində inkişafının təmin edilməsi, onların zərərli məzmundan müdafiəsi və maarifləndirmə tədbirlərinin genişləndirilməsi xüsusi aktuallıq daşıyır.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu təhsil mühitində informasiya təhlükəsizliyi üzrə biliklərin artırılmasının, müəllim və şagirdlərdə rəqəmsal risklərə qarşı düzgün davranış vərdişlərinin formalaşdırılmasının, media və informasiya savadlılığının inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, xüsusilə gənclər arasında tənqidi düşüncə bacarıqlarının formalaşdırılması, təhlükəsiz rəqəmsal davranış vərdişlərinin aşılanması və maarifləndirici fəaliyyətlərin genişləndirilməsi bu istiqamətdə mühüm rol oynayır.



### Bu baxımdan, qanunvericiliyə təklif olunan dəyişikliklər əhəmiyyətlidir

Səhiyyə Nazirliyinin sektor müdiri Aynurə Zeynalova informasiya mühitinin uşaqların və yeniyetmələrin psixoloji rifahına təsirindən bəhs edib. Vurğulanıb ki, zərərli məzmunun mümkün təsirlərinin azaldılması, profilaktik tədbirlərin gücləndirilməsi və valideynlərin məlumatlandırılması sağlam inkişaf mühitinin formalaşdırılması baxımından vacibdir.

Ədliyyə Nazirliyinin Sosial normativ aktlar idarəsinin rəisi Aytən Məmmədova çıxışında qanun layihəsinin hüquqi aspektlərinə toxunub. Qeyd edib ki, təklif olunan dəyişikliklər hüquqi tənzimləmələrin təkmilləşdirilməsinə, tətbiq mexanizmlərinin daha səmərəli qurulmasına və müasir informasiya mühitində yaranan çağırışlara adekvat cavab verilməsinə yönəlib.

İctimai müzakirə zamanı iştirakçılar tərəfindən qanun layihəsində nəzərdə tutulan dəyişikliklər ətrafında geniş və fəal fikir mübadiləsi aparılıb, müxtəlif yanaşmalar və mövqelər səsləndirilib, təkliflər irəli sürülüb. Layihənin ayrı-ayrı müddəaları üzrə aktiv diskussiyalar keçirilib, iştirakçıları maraqlandıran məsələlər ətrafında ətraflı mülahizələr təqdim olunub, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində konstruktiv yanaşmalar irəli sürülüb. Eyni zamanda, dəyişikliklərin mümkün təsirləri, tətbiqi mexanizmləri və gözlənilən nəticələri ilə bağlı baxışlar bölüşülərək peşəkar və səmərəli dialoq mühiti formalaşıb.

*Nardar BAYRAMLI*

# Azərbaycan Orta Dəhlizin inkişafında mühüm rol oynayır

ABŞ-ın paytaxtı Vaşinqtonda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə ənənəvi Trans-Xəzər Forumu keçirilib. Forumda Azərbaycan, ABŞ, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkiyə və digər ölkələrdən yüksəkvəzifəli rəsmilər, eləcə də regional və qlobal səviyyədə nüfuzlu nümayəndələr iştirak ediblər. Builki tədbir həm də Xəzər Siyasət Mərkəzinin fəaliyyətinin 10 illiyinə təsadüf edib.

Forum "Orta Dəhliz dönüş nöqtəsində: Trans-Xəzər regionu üçün gələcək nəslin inkişafı" mövzusu altında təşkil olunub. Xəzər Siyasət Mərkəzinin baş icraçı direktoru Əfqan Nifti bildirib ki, ABŞ-ın həm enerji, həm texnologiya, həm də kritik minerallar sahələrində Mərkəzi Asiya və Qafqaza marağı getdikcə artır. O qeyd edib ki, ötən ilin avqustunda Prezident Donald Trampın iştirakı ilə Ağ Evdə Azərbaycan və Ermənistan liderlərinin görüşünün keçirilməsi, eləcə də C5 formatında Mərkəzi Asiya ölkələri rəhbərlərinin Vaşinqtonda qəbul olunması ABŞ-ın regiona strateji marağının və əməkdaşlığa verdiyi önəmin daha da artdığını göstərir.



Qazaxıstan Prezidentinin ABŞ ilə danışıqlar üzrə xüsusi nümayəndəsi Ercan Kazıxan onlayn çıxışında bildirib ki, Qazaxıstan ABŞ və regional tərəfdaşlarla əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş imkanlar görür. Onun sözlərinə görə, ölkəsi regional tərəfdaşları ilə birlikdə Orta Dəhlizin rəqəmsal komponentinin inkişafı üzərində çalışır. Bu kontekstdə o, Qazaxıstanı və Azərbaycanı Xəzər dənizinin dibi ilə birləşdirəcək Trans-Xəzər fiber-optik kabel layihəsini xüsusi vurğulayıb. Kazıxan qeyd edib ki, layihənin 2026-cı ilin sonunadək tamamlanması nəzərdə tutulur.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev onlayn çıxışı zamanı bildirib ki, Orta Dəhliz artıq, sadəcə, nəqliyyat marşrutu olmaqdan çıxaraq Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və digər regionları birləşdirən strateji geoiqtisadi sistemə çevrilməkdədir. Onun sözlərinə görə, hazırda bu transformasiyanın dərinləşdiyi mərhələ müşahidə olunur. Hikmət Hacıyev vurğulayıb ki, Körfəz regionu və Yaxın Şərqdə münaqişələrin kəskinləşdiyi bir dövrdə Orta Dəhlizin strateji əhəmiyyəti daha da artır.

Özbəkistan Prezidentinin müşavirinin müavini Cavlon Vahabov bildirib ki, bütün Mərkəzi Asiya regionunun xarici bazarlara çıxışını genişləndirə biləcək alternativ marşrutların mövcudluğu böyük əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Orta Dəhliz təkcə tranzit marşrutu deyil, həm də rəqabət qabiliyyətinin artırılması, dayanıqlığın gücləndirilməsi və iqtisadi inkişafın təşviqi baxımından strateji əhəmiyyət kəsb edir. Vahabov bu kontekstdə Trans-Xəzər ölkələri arasında əməkdaşlığın genişlənməsi istiqamətində əldə olunan irəliləyişi yüksək qiymətləndirib. O, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində yükdaşımalar üçün icazə prosedurlarının sadələşdirilməsi və bu sahədə əldə edilən nailiyyətləri vurğulayıb.

Qırğızıstan Prezidentinin beynəlxalq təşəbbüslər üzrə xüsusi nümayəndəsi Edil Baisalov çıxışı zamanı Orta Dəhlizin həm Qırğızıstan, həm də bütövlükdə region üçün yaratdığı yeni imkanlardan bəhs edib. O, bu marşrutun regional əlaqələrin genişlənməsi, ticarətin inkişafı və iqtisadi inteqrasiyanın dərinləşməsi baxımından əhəmiyyətini diqqətə çatdırıb.

Tədbirə xüsusi qonaq qismində qatılan ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deyns ABŞ, Mərkəzi Asiya və Qafqaz ölkələrinin artıq strateji baxımdan bir-birinə daha da yaxınlaşdığını deyib. O bildirib ki, bu fundamental dəyişiklik nəticəsində münasibətlər hazırda olduqca müsbət mərhələyə qədəm qoyub. Onun sözlərinə görə, Mərkəzi Asiyada və Qafqazda artan iqtisadi inteqrasiya birgə maraqlara xidmət edəcək, əhali üçün daha geniş iqtisadi inkişaf imkanları yaradacaq və ümumi təhlükəsizliyi gücləndirəcək: "ABŞ ilə münasibətləri dərinləşdirməyə çalışan və dostluqları mühüm geosiyasi əhəmiyyət daşıyan ölkələrə investisiya qoymaqdan imtina edə bilmərik. Amerikanın Xəzər bölgəsində artan iştirakı hər iki tərəf üçün fundamental dəyişiklik deməkdir. Prezident Donald Tramp, dövlət katibi Marko Rubio və administrasiyanın Amerika milli maraqlarının təmin olunmasına yönəlmiş qətiyyətli siyasəti Mərkəzi Asiya və Qafqazda nümayiş etdirilən cəsarətli liderliklə birlikdə yeni əməkdaşlıq və dostluq dövrü üçün böyük imkanlar yaradıb. Ötən ilin avqustunda Ağ Evdə Ermənistan və Azərbaycan arasında əlamətdar sülh sazişinin imzalandığının şahidi olduq. Həmçinin Vaşinqtonda C5+1 Zirvə görüşü keçirildi. Bu iki hadisə Amerika diplomatiyasında yeni mərhələyə keçidin, eləcə də geostrateji baxımdan mühüm regiona artan diqqətin göstəricisidir".

Konfransın davamında "Orta Dəhliz: Strateji seçimin gücləndirilməsi və təhlükəsiz şəbəkələrin qurulması", "Rəqəmsal suverenlik və sənaye süni intellekti: texnologiya növbəti inkişaf vektoru kimi", "Kritik minerallar", "Enerji təhlükəsizliyi: dəyişən qlobal bazarda Xəzər hövzəsi" və "Orta Dəhliz boyunca biznes investisiyaları" mövzularında panel müzakirələri keçirilib.

Panel sessiyalarında Azərbaycan, ABŞ və digər ölkələrdən dövlət qurumlarının nümayəndələri, ekspertlər, eləcə də Birləşmiş Ştatların biznes dairələrinin təmsilçiləri çıxış edərək müvafiq sahələr üzrə fikir və təcrübələrini bölüşüblər.

*Nardar BAYRAMLI*

# Qeyri-neftə əsaslanan inkişaf göstəriciləri

2026-cı ilin yanvar-may aylarında ölkəmizdə 51 milyard 783 milyon manat həcmində ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Neft sektorunda ÜDM 1 faiz azalsa da, qeyri - neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz artıb. Belə ki, neft-qaz sektorunda əlavə dəyər 16,125 milyard manata, qeyri-neft-qaz sektorunda isə 35,658 milyard manata çatıb. ÜDM istehsalının 27,5 milyard manatı sənaye, təxminən 4 milyard manatı kənd təsərrüfatı, 6,2 milyard manatı nəqliyyat və anbar təsərrüfatı, 1,6 milyard manatı informasiya və rabitə sahələrinin, digər isə başqa bölmələrin payına düşüb. Beş ay ərzində ÜDM ən çox rabitə və informasiya sektorunda artım nümayiş etdirib - 9 faiz dinamika qeydə alınıb. Nəqliyyat sektorunda artım 4,6 faiz, kənd təsərrüfatında 2 faiz artım əldə edilib.

**Qeyri-neft sənayesində əlavə dəyər artıb**

Göründüyü kimi ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmlənib ki, bu da nominal ifadədə 35 milyard manata yaxın milli məhsul deməkdir. Bu isə iqtisadiyyatın birbaşa neft amili olmadan dayanıqlılığını göstərir. ÜDM-də əsas əlavə dəyər yaradan sahələrdən biri olan sənaye sektorunda yaradalın əlavə dəyər ÜDM-in təxminən 55 faizini təşkil edib. Ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin emal bölməsində daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı, əczaçılıq məhsullarının istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri, elektrik avadanlıqlarının istehsalı, toxuculuq sənayesində yüksək istehsal qeydə alınıb.

| | | |
|---|---|---|
| Ümumi daxili məhsul (ÜDM) | 51 783,8 | 0,0% |
| neft-qaz ÜDM | 16 125,4 | -1,0% |
| qeyri neft-qaz ÜDM | 35 658,4 | +0,4% |

| Sosial rifah və inflyasiya | | |
|---|---|---|
| Əhalinin nominal gəlirləri, milyon manat | 37 699,8 | +10,2% |
| Orta aylıq nominal əməkhaqqı², manat (2026-cı ilin yanvar-aprel ayları üzrə) | 1 172,1 | +6,5% |
| İnflyasiya (İstehlak qiymətləri indeksinin artımı) | x | +5,6% |







Sənayenin qeyri-neft bölmələrində əlavə dəyərin nominal həcmi təxminən 9 milyard manat olub ki, artım tempi 5,8 faizə çatıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir. Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin, Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.

**6 milyard manatdan çox investisiya yönəldilib**

Cari ilin ilk rübündə sərmayə axıcılığı da dayanqılı xarakter daşıyıb, əsas kapitala 6,7 milyard manat investisiya yönəldilib. Sektorlar üzrə sənaye, logistika, kənd təsərrüfatı və texnologiya sahələrinə kapital qoyuluşlarında artım baş verib. Əsas kapitala yönəldilmiş investisiyaların 70 faizindəm çoxunu daxili investisiyalar təşkil edib. Xarici investisiyaların həcmi 2 milyard manata bərabər olub.

Yeri gəlmişkən, İqtisadiyyat və Sülh İnstitutu (İEP) tərəfindən açıqlanan "Global Terrorism Index 2026" hesabatına əsasən, Azərbaycan investisiya cəlbediciliyi baxımından dünyanın ən təhlükəsiz ölkələrindən biri kimi mövqeyini daha da möhkəmləndirib. Bu indeks Azərbaycanın sülhpərvər, stabil və tolerant ölkə və xarici investorlar, eləcə də beynəlxalq maliyyə təşkilatları üçün etibarlı istinad mənbəyi olduğunu təsdiqləyir.

**Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb**

2026-cı il mayın 1-i vəziyyətinə ölkədə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,5 faiz artaraq 1172,1 manat təşkil edib. Cari ilin ilk rübündə əhalinin nominal gəlirləri 37,7 milyard manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 10,2 faiz çoxdur.

Strateji valyuta ehtiyatları 15,2 faiz artaraq 88,4 milyard dollara yüksəlib. Bu dövrdə xarici dövlət borcu isə 8 faiz azalaraq 4,6 milyard dollar təşkil edib.

İqtisadiyyata kredit qoyuluşlarının həcmi isə 32,6 milyard manat olmaqla 9,1 faiz artıb. Fiziki şəxslərin banklardakı əmanətləri 17 milyard 642 milyon manat olmaqla, 18,8 faiz yüksəlib. Hesabat tarixində ölkə üzrə istehlak qiymətləri indeksi 5,6 faiz təşkil edib. Ümumilikdə, beş ay ərzində əhalinin gəlirləri inflyasiyanı üstələməklə insanların sosial rifahında əhəmiyyətli rol oynayıb.

**İxrac idxalı 3 dəfə üstələyib**

2026-cı ilin yanvar-may aylarında dövlət büdcəsinin gəlirləri 16 milyard 365,7 milyon manat olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 4,5 faiz azalma deməkdir. Büdcənin xərcləri isə 13 milyard 375,2 milyon manat təşkil edib və xərclər illik müqayisədə nominal ifadədə 2,3 faiz azalıb. Bu dövrdə büdcə profisiti 3 milyard manata yaxın olub. İcmal büdcənin gəlirləri isə 19,8 milyard manat, xərcləri 15,6 milyard manat məbləğində icra edilib.

Xarici ticarət dövriyyəsinin həcmi 18 milyard dollar təşkil edib ki, bu 10,1 faiz artım deməkdir. Ticarət dövriyyəsinin strukturunda ixracın həcmi 12,5 milyard dollara, idxalın payı isə 5,6 milyard dollara çatıb. Yəni ixrac idxalı 3 dəfə üstələyib.

**Beynəlxalq institutların proqnozları necədir?**

Beynəlxalq institutların qiymətləndirmələrinə əsasən, Azərbaycanda ÜDM ilin ikinci yarısında daha çox böyüyəcək. "Fitch Ratings" beynəlxalq reytinq agentliyi ölkəmizdə iqtisadi artımın 2026-cı ilin sonunda 2 faiz təşkil edəcəyini proqnozlaşdırır. "Fitch"in qiymətləndirmələrinə görə, ehtiyatlı fiskal siyasət və kreditləşmənin nisbi artımı enerji qiymətlərinin yüksəlməsinin təsirləri ilə tarazlaşacaq. Agentlik qeyd edib ki, neft hasilatının struktur azalması orta müddətli dövrdə iqtisadi artım üçün əsas çağırışlardan biri olaraq qalır. "Fitch" həmçinin, Azərbaycanda orta illik inflyasiyanın 2026-cı ildə 6,1 faizə yüksələcəyini proqnozlaşdırır. Agentliyin fikrincə, logistika xərclərinin, ərzaq qiymətlərinin və tənzimlənən tariflərin artması inflyasiyaya təzyiq göstərəcək.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) isə Azərbaycanın iqtisadi artımı ilə bağlı proqnozunu 2026-cı ildə 2 faiz hesab edir. Bankın qiymətləndirməsinə görə, 2026-cı ilin ilk rübündə inflyasiya orta hesabla 5,7 faiz təşkil edib və Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun yuxarı həddinə yaxınlaşıb. AYİB Azərbaycanın real ÜDM artımının zəif başlayan 2026-cı ildən sonra sürətlənəcəyini gözləyir. Bank 2027-ci il üçün isə 2,5 faiz səviyyəsində müəyyən edib. Hesabatda vurğulanır ki, Azərbaycanın iqtisadi artım perspektivləri neft və qaz qiymətləri, eləcə də hasilat həcmlərindən asılı olaraq qalır. Yaxın Şərqdəki münaqişənin qlobal enerji qiymətlərini yüksəltməsi ölkəyə əlavə gəlir gətirə və iqtisadi artımı dəstəkləyən xərclər və investisiyalar üçün imkan yarada bilər.

AYİB həmçinin ABŞ-ın vasitəçiliyi ilə Ermənistanla əldə olunan sülh çərçivəsinin regional nəqliyyat və ticarət əlaqələrini genişləndirə biləcəyini, bərpa olunan enerji sahəsinə iri həcmli investisiyaların isə orta müddətdə iqtisadi diversifikasiyanı və artımı dəstəkləyəcəyini bildirib.

*E.CƏFƏRLİ*

# Qlobal investorlar narahatdır

## 2026-cı ilin ikinci yarısında dünya iqtisadiyyatında qeyri-müəyyənliklər davam edəcək

2026-cı ilin birinci yarısında dünya iqtisadiyyatında baş verən təlatümlər davam etməkdədir. Hələ də mürəkkəb olaraq qalan qlobal proseslər cari ilin ikinci yarısında da maliyyə bazarlarında qeyri-müəyyənliklərin yenidən davam edəcəyinə işarə edir. Son aylarda Yaxın Şərqdə artan gərginliklərin davam etməsi, neft qiymətlərində dalğalanmalar və qızılın tarixi yüksək səviyyələrə yaxınlaşması bazarlarda qeyri-müəyyənliyi daha da artırıb. Neft, enerji bazarlarının və əsas valyutaların ilin sonunadək necə dəyişəcəyi ilə bağlı gözləntilər əvvəlki kimi aktuallığını qoruyur. Belə bir vəziyyətdə qlobal investorlar baş verən mənfi tendensiyaları diqqətlə izləyərək nəzərləri qarşıdakı ayların bazar fraqmentasiyalarına yönəldiblər. Bununla yanaşı, investorlar ABŞ Mərkəzi Bankının faiz dərəcələri ilə bağlı növbəti qərarlarını diqqətlə izləyirlər.

Ekspertlərn qənaətinə görə, ilin ikinci yarısında da dünya birjalarını qeyri-müəyyənlik və volatillik gözləyir. Qızıl bazarında qiymətlərin hərəkəti əsasən geosiyasi gərginliklərdən qaynaqlanacaq. Əksər ölkələrin Mərkəzi banklarının qızıl alışlarının və ehtiyatların diversifikasiya siyasətini davam etdirməsi sarı metalın qiymətinin artım istiqamətində hərəkət edəcəyini ehtiva edir. ABŞ Federal Ehtiyat Sisteminin (FES) faiz dərəcəsi siyasəti də qızılın qiymətinə təsir göstərən vacib faktorlardan biri kimi çıxış edəcək.

### Neft bazarında itkilər kəskin artmaqdadır

Enerji bazarlarına gəlincə, ekspertlər burada da volatillik və qiymət tərəddüdlərinin davam edəcəyini ehtimal edirlər. Neft bazarında əsas diqqət Yaxın Şərqdə, xüsusilə Hörmüz boğazında baş verən proseslərə yönələcək. Qlobal iqtisadi artımın zəifləməsi və Körfəz regionundan kənar ölkələrin hasilatı artırması neftin kəskin bahalaşmasının qarşısını ala bilər. ən əsası isə Yaxın Şərqdə gərginliyin azalması və Hörmüz boğazının açılması neft qiymətlərində ucuzlaşmaya səbəb olacaq. Yeri gəlmişkən, Yaxın Şərqdəki münaqişə ötən dövr ərzində qlobal xam neft tədarükündə təxminən 1 milyard barel itkiyə səbəb olub. Norveçdə yerləşən "Rystad Energy" tədqiqat şirkətinin qənaətinə əsasən, fevralın 28-də münaqişə başlayandan bəri qlobal neft tədarükündə əhəmiyyətli fasilələr yaranıb. Bu dövrdə xam neft tədarükündəki ümumi itki ABŞ-ın strateji neft ehtiyatlarından təxminən 2,5 dəfə çoxdur. Münaqişədən əvvəl Körfəzdəki 6 ölkənin ümumi neft tədarükü gündəlik 24,2 milyon barel olub, hazırda isə istehsal 12,4 milyon barelə düşüb. Səudiyyə Ərəbistanında gündəlik təxminən 3,8 milyon barel tədarükə təsir ümumi fasilələrin təxminən 32 faizini təşkil edir. Buna baxmayaraq, yüksək neft qiymətləri və Şərq-Qərb Xam Neft Boru Kəməri vasitəsilə Yanbu Limanına daşımalar ölkənin ixrac gəlirlərinin mart ayında 24,6 milyard dollara çatmasına səbəb olub ki, bu da 2022-ci ildən bəri ən yüksək səviyyədir. İraqda isə cənub yataqlarının Hörmüz boğazı vasitəsilə dəniz yolu ilə ixracdan asılılığı səbəbindən gündəlik təxminən 2,8 milyon barel tədarükə təsir edib. Ölkənin ixrac gəlirləri fevral ayında 6,8 milyard dollar olub, apreldə isə 1 milyard dollaradək geriləyib. Küveytin gündəlik tədarük itkisi təxminən 2 milyon bareldir.

"Rystad Energy"in qiymətləndirmələrinə görə, ilin sonuna kimi kumulyativ təchizat itkisi, hətta, optimist ssenaridə belə 2 milyard barelə çatacağı gözlənilir. Bildirilir ki, tankerlərin yenidən yerləşdirilməsi prosesin ilk maneəsini təşkil edəcək və Hörmüz boğazı yenidən açılsa belə, normal istehsal və logistika axınlarına qayıtma prosesi 2-3 həftə gecikəcək. İtirilmiş həcmlərin təxminən 85 faizinin oktyabr ayına qədər bərpa olunacağı gözlənilir. Lakin İraq və Küveytdəki istehsal sahələrindəki məhdudiyyətlər səbəbindən tam normallaşma 2027-ci ilin yanvar ayına qədər davam edə bilər.

### Dollar dominant mövqeyini davam etdirəcək

Dolların qlobal valyuta bazarında dominant mövqeyinin qoruyacağı da fərz edilir. Burada ABŞ FES-nin faiz dərəcəsi ilə bağlı verəcəyi qərar da valyuta dəyişkənliklərinə təsir göstərəcək. ABŞ dolları bir sıra əsas valyutalar qarşısında güclənməyə davam edəcək, avro isə bəzi regionlarda dəyər itirə bilər. Bu dəyişikliklərin əsas səbəbi isə mərkəzi bankların faiz siyasətlərindəki fərqli yanaşmalarla izah olunur. Analitiklərin fikrincə, valyuta məzənnələrindəki dalğalanmalar əsasən inflyasiya göstəriciləri, enerji qiymətləri və beynəlxalq ticarət balansı ilə sıx bağlıdır. Xüsusilə neft qiymətlərindəki dəyişkənlik bir çox ölkənin milli valyutasına birbaşa təsir göstərir. Bununla yanaşı, inkişaf etməkdə olan ölkələrin valyutaları da xarici investisiya axınlarından ciddi şəkildə təsirlənir. Ümumilikdə, valyuta bazarındakı bu dəyişikliklər qlobal iqtisadi dinamikanın mürəkkəbliyini bir daha ortaya qoyur və gələcək dövr üçün qeyri-müəyyənlik risklərini artırır.




### Qlobal borc rekord həddə yüksəlib

Maliyyə bazarlarında baş verən gərginliklər qlobal borcun rekord həddə yüksəlməsinə də təkan verib. Dünya üzrə qlobal borc 2026-cı ilin ilk dörd ayında təxminən 360 trilyon dollara yüksəlib. Nyu-York Beynəlxalq Maliyyə İnstitutunun (IIF) dərc edilən "Qlobal Borc Monitoru" adlı hesabatına əsasən, qlobal borcun həcmi bu dövrdə 5 trilyon dollardan çox artıb. Borc nisbətləri inkişaf etmiş bazarlarda azalma tendensiyasını davam etdirərkən, inkişaf etməkdə olan bazarlarda davamlı olaraq artıb. Bu dövrdə ən əhəmiyyətli artımlar Norveç, Küveyt, Çin, Bəhreyn və Səudiyyə Ərəbistanında qeydə alınıb.

Beynəlxalq Valyuta Fondunun və Dünya İqtisadi Forumunun hesabatlarına görə, geoiqtisadi qarşıdurmalar, geosiyasi gərginliklər və qlobal enerji bazarındakı qeyri-müəyyənliklər qlobal iqtisadi fəallığa əsas təsir göstərən risklər olaraq qalacaq. Dünyada ÜDM artımının 2,6-2,7 faiz intervalında formalaşacağı gözlənilir ki, bu da son onilliklərin orta göstəricilərindən və əvvəlki illərin dinamikasından aşağıdır. Avropa ölkələrində (Almaniya, Fransa, İtaliya) əhalinin yaşlanması və aşağı məhsuldarlıq səbəbindən artım tempinin 1 faiz ətrafında zəifləyəcəyi gözlənilir. ABŞ iqtisadiyyatının texnoloji sektor və faiz dərəcələrinin yumşaldılması hesabına sabit qalacağı təxmin edilir. Çinin iqtisadi artımının xarici ticarət məhdudiyyətləri səbəbindən 4,5 faizə enəcəyi proqnozlaşdırılır.

Ümumilikdə, beynəlxalq institutlar 2026-cı ilin dünyada iqtisadi baxımdan çətin il olacağını proqnozlaşdırırlar. Ekspertlər qiymətlərin artacağını, bazarlarda qeyri-sabitliyin davam edəcəyini və inflyasiyanın təsirinin hiss olunacağını bildirirlər.

*E.CƏFƏRLİ*

# Ermənistan KTMT-dən əl çəkir, KTMT isə...

## Təşkilat İrəvanı sanksiyalarla hədələyir

Ermənistanın Avropaya inteqrasiya yolunu seçməsi indiyə qədər təmsil olunduğu bir sıra təşkilatlarla münasibətlərinə baxmağı yenidən aktuallaşdırır. Belə ki, Vətəndaş Müqaviləsi Partiyasının son parlament seçkilərində qazandığı qələbənin ardından partiya lideri Nikol Paşinyanın yeni dövrdə Avropaya tərəf üz tutacaqlarını bəyan etməsi, İrəvanın Avrasiya İqtisadi İttifaqı (AİI) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı (KTMT) təmsilçiliyini sual altına alır. Qeyd edək ki, Ermənistan 2024-cü ildə KTMT-dəki iştirakını dayandırdığını elan edib və KTMT-nin proqramlarında, tədbirlərində iştirak etmir. İrəvan iyunun 10-da Kazanda baş tutmuş KTMT xarici işlər nazirlərinin görüşünə də qatılmadı. Bu isə ölkənin təşkilatdakı fəaliyyətinə son verməklə bağlı qərarda qəti olduğunu göstərir.

**Mirzoyan Kazana gəlmədi...**

Yeri gəlmişkən, Kazanda baş tutan iclasda bir neçə sənəd qəbul edilib. KTMT-nin baş katibi Taalətbek Masadıkovun sözlərinə görə, iclas zamanı nazirlər Kollektiv Təhlükəsizlik Şurasının üç qətnamə layihəsini təsdiqləyiblər: üzv dövlətlərin 2030-cu ilə qədər antiterror strategiyası, təşkilatın daimi işçi orqanlarının məxfi məlumatlarının qorunmasını təmin etmək üçün təlimatlara düzəlişlər və "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının 25 illiyi" xatirə medalı.

Bundan əlavə, nazirlər dörd bəyanat qəbul ediblər: Böyük Vətən Müharibəsinin 85-ci ildönümü; kosmosda silahlanma yarışının qarşısının alınması; informasiya və kommunikasiya texnologiyalarının təxribat və terror məqsədləri üçün istifadəsi təhdidlərinə qarşı mübarizənin zəruriliyi; və beynəlxalq hüququn rolunun və BMT Nizamnaməsinin prinsiplərinə sadiqliyin gücləndirilməsi.

Sənədlər Rusiya xarici işlər naziri Sergey Lavrov, Belarus xarici işlər naziri Maksim Rıjenkov, Qazaxıstan xarici işlər naziri Yermek Koşerbayev, Qırğızıstan xarici işlər naziri Jeenbek Kulubayev və Tacikistan xarici işlər naziri Sirojiddin Muhriddin tərəfindən imzalanıb. KTMT Xarici İşlər Nazirləri Şurasının iclası Rusiyanın 2026-cı ildə təşkilata sədrliyi çərçivəsində keçirilib.

**Lavrov Ermənistanı KTMT üzvü sayır, amma...**

Qeyd edək ki, Ermənistan bu tədbirdə də iştirak etmədi. Tədbirdən bir neçə gün öncə Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda bildirmişdi ki, Ermənistan de-fakto Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) fəaliyyətində iştirak etmir. Bununla belə, Ermənistan yenə də Kazan toplantısında müzakirə predmeti olub. Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib ki, İrəvan KTMT-nin tamhüquqlu üzvü olaraq qalır. O qeyd edib ki, Ermənistanın dövlət bayrağı digər dövlətlərin bayraqları ilə birlikdə təşkilatda mövcuddur.

Lavrov jurnalistlərə açıqlamasında Ermənistanın KTMT qarşısında maliyyə öhdəliklərini yerinə yetirməməsi məsələsinin təşkilat daxilində müzakirə olunacağını bildirib. Onun sözlərinə görə, Ermənistanın KTMT büdcəsinə olan borcu artıq iki ildən çoxdur ki, ödənilmir və bu vəziyyət təşkilatın Nizamnaməsində nəzərdə tutulmuş mexanizmlərin tətbiqini gündəmə gətirib. "Bu vəziyyətdə nə etmək lazımdır? Bu məsələni bu gün müzakirə etdik. Ermənistanın KTMT büdcəsinə iki ildən artıqdır borcu var. Bu hal təşkilatın Nizamnaməsində nəzərdə tutulub. Müvafiq maddənin işə salınması imkanını nəzərdən keçirmək barədə razılığa gəldik", - deyə Lavrov bildirib. KTMT Nizamnaməsinin 20-ci maddəsinə əsasən, üzv dövlət iki il ərzində təşkilata olan maliyyə borcunu ödəməzsə, həmin ölkənin vətəndaşlarının təşkilatdakı kvota vəzifələrinə namizədliyi dayandırıla, eyni zamanda ölkə borc tam ödənilənədək səsvermə hüququndan məhrum edilə bilər.

Sənəddə həmçinin qeyd olunur ki, üzv dövlət Nizamnamənin və təşkilatın ali orqanlarının qərarlarını yerinə yetirmədiyi halda, onun təşkilatın fəaliyyətində iştirakı müvəqqəti dayandırıla və ya hətta üzvlüyünə xitam verilə bilər.

**İrəvan ödəmək fikrində deyil...**

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə hələ tədbirdən öncə Ermənistanın 2025-ci ildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlük haqqını ödəmədiyini bildirmişdi və bunun səbəbini göstərmişdi: "2025-ci ildə KTMT-də iştirakımız üçün üzvlük haqqını sadə bir səbəbdən ödəmədik: bu tədbirlərdə iştirak etmədik", - Mirzoyan parlamentin daimi komitələrinin birgə iclasında demişdi.

Vurğulandığı kimi, Ermənistan sonuncu dəfə 2023-cü ildə KTMT-yə üzvlük haqqı ödəyib. Rusiya mətbuatının yaydığına görə, bu məbləğ AİI üzvlüyü ilə birgə o vaxtkı məzənnə ilə təxminən 352 milyon rubl təşkil edib. KTMT-də maliyyələşdirmə xüsusi kvota sistemi əsasında həyata keçirilir. Rusiya ümumi büdcənin 50 faizini, Ermənistan 10, Belarus 10, Qazaxıstan 10, Qırğızıstan 10 və Tacikistan 10 faizini ödəyir.



Baş nazir Nikol Paşinyan isə dünən keçirdiyi brifiinqdə Ermənistanın KTMT üzv dövlətlərin ölkənin assosiasiyadan çıxarılması ilə bağlı mümkün qərarını nəzərə alacaqlarını deyib. "Əgər üzv dövlətlər Ermənistanı xaric etmək qərarına gəlsələr, biz bu qərarı nəzərə almalı olacağıq, başqa işimiz yoxdur", - deyə baş nazir bildirib. Paşinyan üzv dövlətlərin KTMT-dən çıxarılması mexanizmindən xəbərdar olduğunu da vurğulayıb.

**KTMT - Ermənistan davası...**

Qeyd edək ki, 2020-ci Vətən müharibəsindən sonra İrəvan ilə KTMT arasında soyuqluq başlamışdı. 2022-cü ildən isə bu soyuqluq açıq narazılıq müstəvisinə keçdi. KTMT çərçivəsindəki bu "davanın" kökündə isə təşkilatın rəsmi İrəvana həm müharibə, sonradan isə antiterror tədbirləri zamanı "yardım etməməsi" məsələsi dayanır. Ermənistan həmin dövrdə davamlı olaraq KTMT-dən əraziyə hərbi qüvvə, olmayan "sərhədi" qorumaq üçün kontingent göndərməyi, missiya yollamağı tələb edirdi. Amma bunların heç biri baş vermədi. KTMT-də təmsil olunan ölkələr regiona hər hansı bir hərbi müdaxilənin əleyhinə oldular. Ermənistan isə onların bu mövqeyini Azərbaycanla dostluqları ilə əlaqələndirdi. Hətta İrəvanda baş tutan toplantının yekun sənədi belə Paşinyan tərəfindən imzalanmadı. Beləliklə, Ermənistan KTMT-yə qarşı bütün mümkün addımları atır ki, qurumdan xaric edilməsi gündəmə gəlsin.

*SADİQ*

# Rusiyaya qarşı 21-ci sanksiyalar paketi gündəmdə

Rusiya ilə Ukrayna arasında 2022-ci ildə başlayan müharibə yalnız döyüş meydanında getmir. Kiyevi dəstəkləyən Qərb koalisiyasının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar da sonu görünməyən müharibənin ayrılmaz komponentlərindən birinə çevrilib. Müşahidə edilən odur ki, sanksiyalar Rusiyaya heç də bu ölkənin aktiv döyüş əməliyyatlarında verdiyi itkilərdən az təsir göstərmir. Qərb koalisiyası başlanğıcda bəyan etmişdi ki, Moskvaya qarşı sanksiyalar Rusiyanı iqtisadi baxımdan taqətdən salmağa və bu ölkənin Ukraynaya qarşı müqavimət gücünü azaltmağa hesablanıb.

Artıq indiyədək Avropa İttifaqı (Aİ) tərəfindən Rusiyaya qarşı geniş əhatə dairəsinə malik olan 20 sanksiya paketi qəbul olunub. Hazırda isə Avropa Komissiyasında (AK) sayca 21-ci sanksiya paketinin müzakirələri başlayıb.

## Yeni sanksiyalar paketi özündə hansı məqamları ehtiva edir?

Avropa Komissiyası Rusiyaya qarşı energetika, maliyyə və ticarət sektorlarında yeni məhdudiyyətləri, həmçinin mövcud sanksiyalardan yayınmaya qarşı tədbirləri nəzərdə tutan 21-ci sanksiya paketini bu günlərdə təqdim edib. Bunu AK-nın prezidenti Ursula fon der Lyayen Brüsseldə bildirib.

Onun sözlərinə görə, yeni paket Rusiyanın enerji daşıyıcılarının ixracından əldə etdiyi gəlirlərə təzyiqin saxlanmasına yönəlib. Avropa Komissiyası qlobal neft bazarındakı dəyişkənlik fonunda mövcud məhdudiyyətləri qorumaq üçün Rusiya neftinin qiymət tavanının korreksiya mexanizminin gələn ilin yanvarına qədər dayandırılmasını təklif edib.



Aİ enerji sektorunda Rusiya neftinin daşınması ilə əlaqəli daha 30 gəmini sanksiya siyahısına daxil etməyi təklif edib. İlk dəfə olaraq məhdudiyyətlər "kölgə donanması"na yardımçı xidmətlər göstərən gəmilərə və şirkətlərə şamil ediləcək.

Maliyyə sektorunda daha 31 Rusiya bankı üçün əməliyyat qadağasının genişləndirilməsi təklif olunur. Məhdudiyyətlər sanksiyaya məruz qalmış Rusiya strukturlarına xidmət göstərən və ya məhdudlaşdırıcı tədbirlərdən yayınmağa kömək edən üçüncü ölkələrin 20 bankı, kriptovalyuta şirkəti, platforması və neft treyderlərini əhatə edəcək.

Fon der Lyayenin sözlərinə görə, Avropa Komissiyası ilk dəfə olaraq Rusiyaya qarşı sanksiya rejimindən yayınmağa kömək edən üçüncü ölkələrin ayrı-ayrı platformaları tərəfindən kriptoxidmətlərin göstərilməsinə tam qadağa mexanizminin tətbiqini təklif edir.

Eyni zamanda ümumi dəyəri təxminən 60 milyon avro olan malların, o cümlədən ayrı-ayrı metal növləri, metal filizləri və avtomobil komponentlərinin idxalına məhdudiyyətlər təklif olunur.

Qeyd etdiyimiz kimi, sanksiyaların tətbiqində əsas məqsəd Rusiyanın iqtisadi-maliyyə imkanlarını məhdudlaşdırmaqdır. Tarixən neft, qaz, kömür və digər resursların ixracı bu ölkənin gəlirlərinin formalaşmasında mühüm rol oynayıb. Məhz bu kimi strateji sahələr də Qərb tərəfindən tətbiq olunan sanksiyaların əsas hədəfləri olub. Xüsusilə də ayrı-ayrı sanksiyalar paketi ilə neft məhsullarının ixrac həcmləri məhdudlaşdırılıb, aşağı qiymət tavanları müəyyənləşdirilib və s.

Ötən dörd il ərzində tətbiq olunan sanksiyalar Rusiya iqtisadiyyatını tam şəkildə çökdürməsə də, bu ölkənin gəlirlərində əhəmiyyətli azalmalar müşahidə edilir. Finlandiyanın beyin mərkəzi olan CREA-nın məlumatına görə, Rusiyanın 2025-ci ildə neft, qaz, kömür və neft məhsulları ixracından əldə edilən gəlirlər təxminən 193 milyard avro təşkil edib. Bu, əvvəlki il ilə müqayisədə 19 faiz azalma deməkdir. Müharibədən əvvəlki dövrlə müqayisədə azalma daha nəzərəçarpan olub və 27 faiz təşkil edib.

Rusiyanın enerji məhsullarının Aİ-yə ixracı xüsusilə kəskin şəkildə azalıb. Belə ki, bu rəqəm il ərzində 36 faiz azalaraq 14,5 milyard avroya düşüb. Rusiyanın iki ən böyük müştərisinin neft idxalı da azalıb: Hindistanın Rusiyadan neft idxalı doqquz faiz azalaraq 31,6 milyard avroya, Çinə idxal isə 14 faiz azalaraq 43 milyard avroya düşüb.

CREA əsas səbəblər kimi Rusiya xam neftindən istehsal olunan neft məhsullarına qarşı Aİ sanksiyalarını və ABŞ-ın OFAC agentliyinin iki neft şirkətinə - "Rosneft" və "Lukoil"a qarşı gördüyü tədbirləri göstərir. Bu, xüsusilə Hindistana tədarükü əhəmiyyətli dərəcədə azaldıb.

Eyni zamanda, neft-qaz gəlirlərinin azalması fonunda Rusiya iqtisadiyyatında son vaxtlarda zəifləmə meyilləri güclənir və artım tempi aşağı düşür.

Rəsmi statistik göstəricilərə əsasən, ölkənin ümumi daxili məhsulu 2026-cı ilin yanvar ayında 2,1 faiz, fevral ayında isə 1,5 faiz azalıb. Bu, son illərdə müşahidə edilən sabit artım dövründən sonra iqtisadi aktivliyin zəiflədiyini göstərir.

Analitiklərin qiymətləndirməsinə görə, əsas səbəblərdən biri Rusiyanın iqtisadi modelində mühüm rol oynayan neft və qaz gəlirlərinin tədricən azalmasıdır. Enerji ixracından əldə olunan gəlirlər əvvəlki illərdə aylıq 20-30 milyard avro səviyyəsində olsa da, son dövrlərdə daha aşağı göstəricilərə enib.

Mütəxəssislər bildirirlər ki, 2023-2024-cü illərdə enerji bazarlarında nisbi sabitlik və yüksək qiymətlər iqtisadiyyata dəs-

## Dəyənəyin iki başı - kim nə qədər itirir?

tək versə də, 2025-2026-cı illərdə vəziyyət dəyişməyə başlayıb. Gəlirlərin azalması büdcə gəlirlərinə və iqtisadi artıma birbaşa təsir göstərir.

Sanksiyalarla yanaşı, enerji infrastrukturuna edilən zərbələr və alternativ bazarlara çıxış məhdudiyyətləri də Rusiya iqtisadiyyatına əlavə təzyiq yaradır. Mütəxəssislərin fikrincə, neft və qaz gəlirlərindən yüksək asılılıq Rusiya iqtisadiyyatının əsas risk amili olaraq qalır və bu gəlirlər azaldıqca iqtisadi artımın davamlılığı da zəifləyir.

Lakin dəyənəyin iki başı var. Ard-arda tətbiq olunan sanksiyalar Rusiyanı tədricən zəiflətdiyi kimi, Avropanın özünə də təsirsiz ötüşmür. Avropa qitəsi Rusiyaya qarşı tətbiq edilən sanksiyalara görə xeyli itki ilə üzləşib. Müxtəlif mənbələrin verdiyi məlumatlarda bildirilir ki, sanksiyalar tətbiq edildiyi müddətdə Rusiyadan Aİ-yə idxal 91 milyard avro, ixrac isə 2021-ci illə müqayisədə 48 milyard avro azalıb. Bu, Avropanı diversifikasiya etməyə məcbur edib. Aİ üzvü olan ölkələrin mallarının bir hissəsi ABŞ və Yaxın Şərq bazarlarına yönləndirilib. Lakin bu da qoca qitə üçün asan başa gəlmir. Belə ki, Brüssel tez-tez Vaşinqtonun tarif hədələrinə məruz qalır.

Bütün bunların göstəricisi kimi infllyasiya Aİ-də Rusiya ilə iqtisadi əlaqələrin kəsilməsindən dərhal sonra ciddi şəkildə artmağa başlayıb. Xatırlayaq ki, müharibənin ilk ilində Aİ məkanında inflyasiya 10-12 faizə çatdı və sonradan həyata keçirilən zəruri tədbirlərin nəticəsində müəyyən qədər səngidi. Rusiyanın timsalında ucuz və stabil enerji daşıyıcıları bazarından məhrum qalması Aİ dövlətlərinin ən böyük itkisi sayılır. Aparılan araşdırmalar onu deməyə əsas verir ki, 2022-ci ildən etibarən enerji qiymətlərindəki artım Aİ üçün hər il 200 milyard avro itki deməkdir.

Siyasi parçalanmanı da mənfi mənada Aİ-nin aktivinə yazmaq mümkündür. Belə ki, Avropa İttifaqının üzvü olan bəzi ölkələr Rusiyaya qarşı sanksiyaların tətbiqi siysətini qəbul etmirlər. Cünki Rusiyaya qarşı sanksiyaların getdikcə daha da sərtləşdirlməsi yeni yüksək qiymətlər dalğasını gətirir ki, bu da hökumətlərə qarşı daxili etirazların artması deməkdir. Beləliklə, Avropa Komissiyasının özündə də etiraf olunur ki, Rusiyaya qarşı 21-ci sanksiyalar paketinin asanlıqla qəbul ediləcəyi gözlənilmir.

*Mübariz FEYİZLİ*

12 iyun 2026-cı il, cümə № 101 (7168)

# Bahalı raketlərin ucuz qənimi...

## Ukraynada ABŞ “Patriot”larına alternativin kütləvi istehsalına başlanacaq

Dünya tarixində Ukrayna kimi müharibənin intensiv mərhələsində müdafiə sənayesini əhəmiyyətli dərəcədə yeniləyən ölkələrin sayı az olub. Bu ölkə Rusiya ilə müharibənin başladığı 2022-ci ildən etibarən qısa müddətdə milli sənayedə yeni, daha keyfiyyətli silahların istehsalını mənimsəməklə həm müdafiəni gücləndirməyə, həm də hücum taktikasına keçməyə, Rusiyanın dərinliklərində yerləşən strateji obyektləri, kritik enerji infrastrukturunu sıradan çıxarmağa nail olub.

Son olaraq isə Ukraynadan ABŞ-ın “Patriot”larının yerli və ucuz analoqu yaradıldığı barədə məlumatlar gəlib.

### İndiyədək “yer-hava” tipli ABŞ “Patriot”ları dünyada ən yaxşılardan sayılıb

“Patriot” sistemi iki böyük şirkətin birgə məhsuludur. Belə ki, “Patriot”un “ radar və yerüstü sistemləri “Raytheon” şirkəti, önləmə raketləri isə “Lockheed Martin”in Raketlər və Atışa Nəzarət bölməsi tərəfindən istehsal edilir.

“Patriot” mürəkkəb “yer-hava” tipli raketdən müdafiə sistemidir. Bu silahın layihəsi 1960-1970-ci illərdə ABŞ-in “Raytheon” müdafiə şirkəti tərəfindən hazırlanıb. İndiyədək dünyada ən effektiv hava hücumundan müdafiə sistemi sayılan “Patriot”un ilkin istehsalına isə 1980-ci ilin sentyabrında başlanılıb. ABŞ ordusu ilk “Patriot” batereyasını 1982-ci ilin mayında işə salıb.

“Patriot” əvvəlcə zenit sistemi kimi dizayn edilib, daha sonra ballistik və qanadlı raketləri, başlıqsız sursatları və təyyarələri vurmaq üçün təkmilləşdirilib. Mobil raketdən müdafiə sistemi adətən güclü radardan, idarəetmə stansiyasından, enerji generatorlarından, buraxılış qurğularından və köməkçi dəstək vasitələrindən ibarət olur. Onun imkanları yerləşdirilmiş önləyicinin növündən asılı olaraq dəyişir. Önləyici gələn raketi vurmaq məqsədilə ona doğru buraxılan raketə verilən addır.

PAC-2 önləyicisi partlama-parçalanma döyüş başlığına malikdir. PAC-3 raketi qabaqcıl “vur-öldür” texnologiyasından istifadə edir. “Patriot” sistemi PAC-2, PAC-3 və PAC-3 “Missile Segment Enhancement” (MSE) daxil olmaqla, MIM-104 “Patriot” raketinin müxtəlif variantlarından istifadə edir. Bu raketlər təyyarələri, qanadlı raketləri və ballistik raketləri vurmağa qadirdir.

Bir “Patriot” batareyasına adətən 6-8 buraxılış qurğusu, həmçinin radar dəsti, ECS, enerji generatoru və AMG daxil olur. Hazırda “Patriot” sistemindən ABŞ, Almaniya, Yaponiya və bəzi NATO üzvləri də daxil olmaqla, 18 ölkə istifadə edir. “Patriot” sistemi kompleks və bahalı HHM həllidir və ümumi proqram xərcləri 50 milyard dollardan çox qiymətləndirilir. İndiyədək bu sistem dünyada ən yaxşılardan sayılıb.

### Ukrayna “Patriot”larının əsas üstünlüyü

Ukraynadan verilən məlumatda bildirilir ki, bu ölkənin “Fire Point” hərbi şirkəti ballistik raketləri və strateji dronları havada məhv etmək üçün nəzərdə tutulmuş yerli “FP-7.x” raketinin ilk uçuş sınaqlarını uğurla başa vurub. Hərbi ekspertlər bu layihəni Ukrayna kəşfiyyatı və mühəndisliyinin ABŞ-ın məşhur “Patriot” HHM sistemlərini əvəzləmək məqsədilə yaratdığı ən ciddi alternativ hesab edirlər. Çünki layihə həm də çox güclü iqtisadi effektivliyə malikdir.

Tərtibatçıların sözlərinə görə, Almaniyanın “Diehl Defence” şirkətindən infraqırmızı özütuşlayan başlıqların (GOS) alınması barədə razılıq əldə olunarsa, “FP-7.x” raketi Qərbin “Patriot” və “SAMP-T” kimi bahalı sistemlərini tamamilə əvəzləyə biləcək kütləvi və ucuz silaha çevriləcək.

Şirkət rəhbərliyi yeni raketlərin konveyer xətti ilə kütləvi istehsalına artıq bu ilin avqust ayında başlamağı planlaşdırır. İlk hazır məhsulların isə 2027-ci ilin əvvəllərində Ukrayna Silahlı Qüvvələrinin arsenalına daxil olacağı və hava məkanının müdafiəsinə cəlb ediləcəyi gözlənilir.

Xatırladaq ki, ABŞ “Patriot”unun bir ədədinin qiyməti təxminən 3,8 milyon dollar, Ukraynanın “FP-7.x” raketinin qiyməti isə 700 min dollardır. Beləliklə də Ukrayna “Patriot”larını bahalı raketlərin ucuz qənimi kimi səciyyələndirmək mümkündür.



### Avropa üçün yaranan kritik təhlükəsizlik problemi

Son bir ildə Avropa İttifaqı (Aİ) məkanında təlatümlər yaşanıb, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Xüsusilə də ABŞ-da administrasiya dəyişikliyindən sonra Aİ üzvü olan ölkələrin təhlükəsizliyinin, necə deyərlər, nazik bir ipdən asılı olduğu üzə çıxdı. Söhbət ondan gedir ki, indiyədək Aİ özünün təhlükəsizliyini NATO-nun aparıcı qüvvəsi olan ABŞ-ın məsuliyyəti hesab edib və avtanom müdafiə çətiri qurmaq qayğısına qalmayıb. Donald Tramp Ağ Evdə vəzifə səlahiyyətlərinin icrasına başladıqdan sonra veriyi ilk bəyanalar ölkəni izafi xəclərdən azad edəcəyi ilə bağlı oldu. O cümlədən D.Tramp Avropanın əsas müdafə qarantı sayılan NATO-nun əsas xərclərinin ABŞ-ın üzərinə yüklənməısini qəbul etmir və Aİ ölkələrindən müdafiə xərclərini artırmalarını istəyir. Ümumiyyətlə, son bir ildə Vaşinqtonun NATO ilə yollarını ayıracağı ciddi müzakirə mövzusuna çevrilib.

Aİ üçün yaranan böyük narahatlıq həm də ondan ibarətdir ki, ABŞ-in yeni administrasiyası Ukraynaya kritik silah tədarükünün yeni mexanizmini tətbiq etməyə başlayıb. Bayden administrasiyası dönəmində zəruri silahlar Vaşinqtondan Kiyevə birbaşa tədarük olunurdu. D.Trampın müəyyənləşdirdiyi yeni qaydalara əsasən isə Ukrayna cəbhəsi üçün lazım olan silahlar əvvəlcə Avropa İttifaqına satılır. Bundan sonra Aİ pulla aldığı bu silahları Ukraynaya ötürür, Bu, ən yüksək rahatlıqlara öyrəşmiş Avropa üçün əlavə maliyyə öhdəliyidir. Bununla belə, Aİ-nin artan xərc yükünü çəkməkdən başqa çıxış yolu yoxdur. Çünki, Ukrayna indiki məqamda qoca qitənin müdafiə qalası sayılır. Brüsseldə hesab edirlər ki, Kiyevin məğlub olacağı təqdirdə dağıdıcı raketlərin vahimə yaradan səsi Avropa paytaxtlarında eşidiləcək.

Digər tərəfdən, Avropanın “Patriot”larla təchizatı da risk altına düşüb. Xatırladaq ki, Vaşinqton Ukraynaya ilk “Patriot” dəstini 2023-cü ildə göndərib. Avropada Qrelandiya ətrafında yaranan mübahisələr, həmçinin son aylarda Yaxın Şərqdə izlənilən proseslər ABŞ-ı “Patriot” tədarükündə ehtiyatlı davranmaq zərurəti ilə üz-üzə qoyub. İranın ABŞ-ın Yaxın Şərqdəki bazalarını intensiv şəkildə raket atəşinə məruz qoyması o reallığı gündəmə gətirib ki, Vaşinqdon bu regiondakı müttəfiqlərinin təhlükəsizlik modelini yenələməlidir. Əks halda bölgədə ABŞ-ın yerini digər güclərin tutması ehtimalı tam realdır. Bunun fərqində olan Ağ Ev son vaxtlarda Yaxın Şərqdəki müttəfiqlərinə “Patriot” tədarükünü artırıb.

Bunun əvəzində Avropa “Patriot” növbəsində daha çox gözləməli və daha böyük həcmlərdə vəsaitlər ödəməlidir. Əslində, ABŞ ötən ilin sonrarından başlayaraq Avropaya “Patriot” satışını dayandırıb. “The Atlantic” nəşrinin məlumatına görə, ABŞ-in Avropaya hərbi texnika satışına münasibətində dəyişikliklərin ilk göstəricisi Danimarkanın ballistik raketləri vurmaq qabiliyyətinə malik “Patriot” sistemlərinin alınması istəyini rədd etməsi olub.

Administrasiya rəsmiləri “The Atlantic” nəşrinə bildiriblər ki, ABŞ Müdafiə Nazirliyinin müavini Elbric Kolbi “Patriot” sistemlərinin Danimarkaya satışını bəyənməyib, çünki bu sistemlər qıtlaşıb və onun fikrincə onlar yalnız ABŞ-in ehtiyacları üçün saxlanmalıdır. Administrasiyadakı mənbələr bildirir ki, Pentaqon bəzi silah növlərinin çatışmazlığı səbəbindən Avropadan gələn yeni tələbləri bloklamağa başlayıb.

Mənbələr bloklanmanın nə qədər davam edəcəyi, “Patriot” sistemlərindən başqa hansı silahların siyahıda olduğu və siyahının genişlənib-genişlənməyəcəyi barədə məlumat verməyiblər.

### Ukrayna xilaskar rolunda

Müharibənin ilk dörd ilində Avropa İttifaqı Ukraynanın müdafiəsinin təmin olunmasında mühüm rol oynayıb, Belə ki, Brüssel və ayrı-ayrı Avropa dövlətləri Kiyevi həm siyasi, həm maddi, həm də texniki cəhətdən davamlı olaraq dəstəkləyiblər. Belə görünür ki, indi isə növbə Ukraynanın Aİ-nin təhlükəsizliyinin təmin olunmasında rol almasına çatıb. Müşahidə edilən odur ki, Ukrayna son 4 ildə yalnız Qərb tərəfdaşlarından aldığı silahlarla müharibə aparmaqla kifayətlənməyib, paralel şəkildə özünün müdafiə sənayesini inkişaf etdirməyə nail olub. Burada Ukraynaya üstünlük qazandıran bir məqamı xüsusi vurğulamaq lazımdır. Bu ölkə müdafiə sənayesinin inkişaf xəttini məhz müasir müharibələrin tələblərinə uyğun istiqamətləndirməyi bacarıb ki, bu da onun böyük uğurudur. Hazırda Ukraynanın əlində olan dron əleyhinə sistemlərin dünyada analoqu yoxdur. Bu gün Ukraynanın öz istehsalı olan pilotsuz uçuş aparatları min kilometr məsafə qət etməklə Rusiyanın dərinliklərində yerləşən strateji obyektləri nöqtə zərbələri ilə məhv edir. PUA-ların istehsalı Kiyevə ucuz başa gəlir, onların səmada sıradan çıxarılmasına isə bahalı raketlər tələb olunur. Beləliklə də, ucuz başa gələn uçan aparatlar qarşı tərəf üçün müharibəni daha bahalı edir və onun imkanlarını məhdudlaşdırır. Bundan başqa, Ukraynanın qara dənizdə blokadanı aradan qaldırmağa nail olması dünya üçün böyük təcrübədir. Qeyd edək ki, Kiyev dəniz blokadasını yarmağa məhz “Sea Baby” və “Magura” tipli dəniz dronları sayəsində nail olub.

İndi dünya Ukraynanın təcrübəsindən və məxfi dron texnologiyasından bəhrələnmək istəyir. O cümlədən ciddi təhlükəsizlik problemi ilə üzləşən Avropa İttifaqı üçün yol müəyyən mənada asan görünür. Qoca qitə son dörd ildə çətin müharibədə dayaq durduğu Ukraynanın “dərslərindən” öyrənmək və bu ölkənin təcrübəsindən bəhrələnmək imkanına malikdir. Artıq bununla bağlı müzakirələr də başlayıb. Yeri gəlmişkən, V.Zelenski bildirib ki, Ukrayna əvvəllər Yaxın Şərqdə və Fars körfəzi ölkələrində keçirilən danışıqlarda qəbul edilmiş təhlükəsizlik üzrə öz təkliflərinin Avropa hissəsini hazırlayır. Kiyevin Avropanın təhlükəsizliyi üçün hazırladığı planın bəzi mühüm istiqamətləri artıq bəllidir. Buraya birgə istehsal, modernləşdirmə, müdafiə sahəsində maliyyələşdirmə proqramları, təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətlərin koordinasiyası kimi strateji əhəmiyyət daşıyan istiqamətlər daxildir.

Bundan başqa, Kiyev uzun müddətdir ki, vahid Avropa silah sənayesi ideyasından çıxış edir. Qeyd edək ki, bu ideya qoca qitədə ayrı-ayrı səviyyələrdə dəstəklənib və onun detalları ətrafında müzakirələr aparılıb. O cümlədən ABŞ “Patriot”larına Ukrayna alternativinin kütləvi istehsalının birgə təşkili də istisna olunmur. Bir sıra Avropa dövlətləri “Patriot” tədarükündə Ukraynanın ABŞ-dan asılılığını azaltmaq üçün Kiyevə kömək göstərəcəklərini bəyan ediblər. Böyük Britaniyanın Baş naziri Keir Starmer ilə danışıqlardan sonra Ukrayna prezidenti də Fransa, Almaniya və Londonun ballistik raketlər əleyhinə sistemlərin yaradılmasına kömək göstərmək niyyətində olduqlarını təsdiqləyib. Zelenski həmçinin NATO-nun baş katibi Mark Rutte ilə Alyansı alternativin hazırlanmasında əlaqələndirici rol oynamağa inandırmaq üçün danışıqlar aparıb. Eləcə də NATO-nun əlaqələndirici rolunda sənaye liderləri, ittifaqa üzv ölkələrin milli təhlükəsizlik məsləhətçiləri və digər rəsmilərlə planlaşdırma məsələləri ilə bağlı görüşlər keçirdiyi məlumdur. Ukrayna mənbələri The Telegraph-a bildiriblər ki, Avropa üçün raket tutucu alternativin hazırlanması Kiyevin yaxın planlarında mühüm yer tutur. Koalisiyanın planları ilə tanış olan bir mənbə bildirib ki, “Ukraynanın rolu anti-ballistik raket tutucuları istehsal etməkdir və biz artıq onları sınaqdan keçirirk”.

*Mübariz ABDULLAYEV*



# Kibertəhlükəsizlik: Rəqəmsal dünyanın görünməyən müharibəsi

XXI əsr texnologiya və informasiya əsri kimi xarakterizə olunur. İnternetin sürətli inkişafı və rəqəmsal texnologiyaların həyatın bütün sahələrinə nüfuz etməsi insanların gündəlik fəaliyyətini əhəmiyyətli dərəcədə dəyişib. Bu gün bank əməliyyatlarından alış-verişə, təhsildən dövlət xidmətlərinə qədər bir çox proses onlayn platformalar üzərindən həyata keçirilir.

Lakin texnologiyanın yaratdığı imkanlarla yanaşı, yeni təhlükələr də meydana çıxıb. Bu təhlükələrin ən ciddilərindən biri kibercinayətkarlıqdır. Müasir dövrdə mübarizə yalnız fiziki məkanda deyil, rəqəmsal aləmdə də aparılır. Kompüter sistemlərinə edilən hücumlar, məlumat oğurluğu və maliyyə fırıldaqları kiberməkanda görünməyən müharibənin əsas elementlərinə çevrilib. Kibertəhlükəsizlik kompüter sistemlərinin, şəbəkələrin və məlumatların icazəsiz girişdən və zərərli hücumlardan qorunmasını təmin edən tədbirlər toplusudur. Onun əsas məqsədi informasiyanın məxfiliyini, bütövlüyünü və əlçatanlığını qorumaqdır.

Bu gün şəxsi məlumatlar, bank hesabları və dövlət qurumlarının informasiya bazaları kibercinayətkarlar üçün əsas hədəflər hesab olunur. Buna görə də kibertəhlükəsizlik təkcə texniki deyil, həm də iqtisadi və milli təhlükəsizlik məsələsidir.İnternet istifadəçilərinin sayının artması kibercinayətlərin də geniş yayılmasına səbəb olub. Ən çox rast gəlinən hücum növlərindən biri fişinqdir. Bu üsul zamanı istifadəçilərə saxta məktublar və ya mesajlar göndərilir, onların bank kartı məlumatları və parolları ələ keçirilir. Digər təhlükə isə zərərli proqramlardır. Viruslar və ransomware proqramları istifadəçilərin cihazlarına daxil olaraq məlumatları oğurlayır və ya bloklayır. Bəzi hallarda məlumatların geri qaytarılması üçün pul tələb olunur.

Kibertəhlükəsizlik artıq yalnız fərdi istifadəçilərin problemi deyil. Bir çox ölkələr öz kibertəhlükəsizlik strategiyalarını hazırlayıb və xüsusi kiberqoşunlar yaradıblar. Ekspertlərin fikrincə, enerji sistemlərinə, bank şəbəkələrinə və rabitə infrastrukturuna edilən kiberhücumlar bəzi hallarda ənənəvi hərbi hücumlardan daha böyük zərər verə bilər. Çünki belə hücumlar bütöv bir ölkənin fəaliyyətini iflic vəziyyətinə sala bilər. O cümlədən sosial media platformaları ünsiyyət imkanlarını genişləndirsə də, yeni risklər yaradıb. İstifadəçilərin paylaşdığı şəxsi məlumatlar kibercinayətkarlar üçün mühüm informasiya mənbəyidir. Bundan əlavə, sosial şəbəkələr saxta xəbərlərin və dezinformasiyanın yayılması üçün də əlverişli mühitə çevrilib. Bu səbəbdən informasiya təhlükəsizliyi də kibertəhlükəsizliyin vacib tərkib hissəsi hesab olunur.Süni intellekt kibertəhlükəsizlik sahəsində həm imkanlar, həm də təhlükələr yaradır. Bu texnologiya təhlükələri daha tez aşkar etməyə kömək etsə də, kibercinayətkarlar tərəfindən də istifadə olunur. Deepfake texnologiyası vasitəsilə hazırlanan saxta video və səslər insanların həqiqəti ayırd etməsini çətinləşdirir və dezinformasiyanın yayılması riskini artırır.

Azərbaycanda da rəqəmsallaşmanın sürətlənməsi kibertəhlükəsizlik məsələlərini daha da aktuallaşdırır. Son illərdə dövlət qurumları və özəl sektor informasiya sistemlərinin qorunmasına daha çox diqqət ayırır, vətəndaşların rəqəmsal savadlılığının artırılması istiqamətində tədbirlər həyata keçirilir. Bu istiqamətdə atılan mühüm addımlardan biri Azərbaycan Prezidenti İlham Əliyevin 2026-cı il 2 iyun tarixli Fərmanı ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin bazasında Milli Kibertəhlükəsizlik Agentliyinin yaradılmasıdır. Agentliyin əsas məqsədi ölkədə kibertəhlükəsizlik sahəsində idarəetmə və nəzarət mexanizmlərini təkmilləşdirmək, kritik informasiya infrastrukturunun təhlükəsizliyini gücləndirmək və kibertəhdidlərə qarşı daha effektiv mübarizə aparmaqdır.Yeni yaradılmış Agentlik kibertəhlükələrin aşkarlanması, qarşısının alınması, fərdi məlumatların mühafizəsi və bu sahədə maarifləndirmə işlərinin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərəcək. Mütəxəssislər hesab edirlər ki, bu qurumun yaradılması ölkədə kiberrisklərin idarə olunmasını daha sistemli şəkildə təşkil etməyə və milli kibertəhlükəsizlik sisteminin inkişafına mühüm töhfə verəcək.

Ümumilikdə, rəqəmsal dünyanın sürətlə inkişaf etdiyi bir dövrdə kibertəhlükəsizlik hər bir fərdin və dövlətin diqqət yetirməli olduğu əsas məsələlərdən biridir. Texniki müdafiə vasitələri nə qədər güclü olsa da, istifadəçilərin məlumatlı olması və təhlükəsizlik qaydalarına əməl etməsi böyük əhəmiyyət daşıyır. Çünki kibertəhlükəsizlikdə ən zəif halqa çox vaxt insan faktoru olur. XXI əsrin görünməyən müharibəsi məhz kiberməkanda aparılır və bu mübarizədə təhlükəsizlik hər kəsin ortaq məsuliyyətidir.

*Gülgəz Qasımzadə,*
*Bakı Dövlət Universitetinin tələbəsi*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Bərabərsizliyin ağır nəticəsi

## Milyonlarla uşaq əmək istismarının qurbanıdır...

Uşaqlar cəmiyyətin ən dəyərli sərvəti, gələcəyin qurucuları və sabahın ümid mənbəyidir. Uşaqlıq isə insan həyatının ən qayğısız, rəngarəng və vacib inkişaf dövrüdür. Ancaq dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla uşaq yoxsulluq, sosial bərabərsizlik, silahlı münaqişələr və digər çətinliklərin qurbanı olur. Bu səbəbdən öz yaşlarına uyğun olmayan işlərdə çalışaraq həm fiziki, həm də psixoloji baxımdan ciddi risklərlə üzüzə qalırlar.

Uşaq Hüquqları Konvensiyasına əsasən, uşaq əməyinin istismarı qadağandır. Buna baxmayaraq, dünyada elə ölkələr var ki, oradakı zavodlarda, fabriklərdə və fermer təsərrüfatlarında uşaq əməyindən istifadə edilir. Milyonlarla uşaq dünyanın bir çox ölkəsində xoşbəxt uşaqlığın nə olduğunu bilmir. Onlar ölkələrinin iqtisadiyyatı zəif olduğu üçün işləməyə məcburdurlar. Lakin dünyanın hər bir yerində uşaqlar öz enerjilərini fərdi bilik və bacarıqlarının artırılmasına yönəltməlidirlər. Əməyi istismar edilən uşaq gələcək arzu və istəklərindən məhrum olur.

**Dəhşətli statistika...**

Bu gün iqtisadiyyatı zəif olan və sosial baxımdan ehtiyacı artan ölkələrdə 250 milyondan çox azyaşlı uşaq işləyir. Beynəlxalq təşkilatların məlumatlarına görə, dünyada uşaq əməyinin istismarına Asiya ölkələrində 153 milyon, Afrikada 80 milyon, Cənubi Amerika ölkələrində isə 17 milyona qədər azyaşlı uşaq məruz qalır. Həmin uşaqlar dözülməz şəraitdə işlədilir və bir çox hallarda öz sağlamlıqlarını itirirlər. Əksər hallarda azyaşlılar hərbi konfliktlərə cəlb edilirlər.

**İlk yeri bu ölkə tutur**

Uşaq əməyinin istismarı hallarının 69 faizi kənd təsərrüfatı sahəsinin payına düşür. Uşaqlar bu sahədə əsasən tütün, pambıq, düyü və kakao yığımında istifadə olunurlar. Myanma uşaq əməyinin istismarına görə ilk yeri tutur.

Bundan başqa Hindistan, Braziliya, Banqladeş, Filippin, Nepal, Somali, Şimali Koreya, Şri-Lanka, Əfqanıstan da bu siyahıya daxildir.

**Uşaqların 40 faizi təhsil ala bilmir...**

Myanmada 7 yaşına çatmış hər üç uşaqdan biri işləyir. Bu uşaqlar çox ağır işlərdə çalışırlar. Yaxın günlərə qədər uşaq əməyi hərbi sahədə də istifadə edilirdi. Uşaqlar orduda təmizlik işləri və yük daşımaqla məşğul olurdular.

Yeri gəlmişkən, iyunun 12-si Ümumdünya Uşaq Əməyinə Qarşı Mübarizə Günü kimi qeyd edilir. Beynəlxalq Əmək Təşkilatı tərəfindən ilk dəfə 2002-ci ildən qeyd edilən bu günün məqsədi cəmiyyətin diqqətini mövcud problemə yönəltmək və uşaq əməyinin ləğvinə nail olmaqdır.

Ölkəmizdə uğurlu sosial siyasətin prioritetlərindən biri kimi, uşaqların müdafiəsi, onların sağlam və firavan böyüyərək layiqli vətəndaş kimi yetişmələri üçün kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərin bir istiqaməti də uşaq əməyinin istismarına qarşı mübarizəyə yönəlib. Ötən dövrdə ölkəmiz BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına, "Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında" Ümumdünya Bəyannaməsinə və s. sənədlərə qoşulub. Milli qanunvericilik həmin sənədlərdən irəli gələn mütərəqqi beynəlxalq normalar, həmçinin BƏT-in "İşə qəbul etmək üçün minimum yaş həddi haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" konvensiyaları əsasında təkmilləşdirilib.

Azərbaycan qanunvericiliyi uşaqların həyat və sağlamlığına, mənəviyyatına təhlükə törədə biləcək işlərə cəlb edilməsini qadağan edir. Ölkəmizin Əmək Məcəlləsinə əsasən, uşaqların işə qəbul edilməsi üçün minimum yaş həddi 15 yaş müəyyən edilib. Bu yaşa çatmamış uşaqlarla bağlanılan əmək müqaviləsi etibarsız sayılmaqla, belə müqaviləni bağlayan işəgötürən inzibati məsuliyyətə cəlb edilir. 15 yaşdan 18 yaşadək işçilərin əməyindən istifadə ilə bağlı onlar üçün əmək şəraiti, iş və əmək məzuniyyəti vaxtı, müddəti və s. baxımından əlavə təminatlar, güzəştlər müəyyən olunub.

***Yeganə BAYRAMOVA***

# Soyuq və şirin dad...

## Keyfiyyətli dondurmanı necə seçməli?

Dondurmanın xeyri və zərərləri haqqında nə qədər danışılır-sa-danışılsın, bu soyuq və ləzzətli təam hələ də həm uşaqların, həm də böyüklərin sevimli desertlərindən biridir. Dondurmalar ölçüsünə, dadına və qiymətinə görə fərqlənir. Marketlərdə müxtəlif şirkətlərin istehsalı olan dondurmaya rast gəlmək olar. Ölkəmizdə yerli istehsalla yanaşı, Türkiyə və Rusiyadan gətirilən dondurmalar da satılır. Onların qiyməti isə müxtəlifdir. Ən ucuz dondurma 50 qəpik, ən bahalısı isə 47 manatadır.

Araşdırmalara görə, dondurma insanın əhvalını yaxşılaşdırır, stressi azaldır. Təbii ki, bütün bunlar yalnız keyfiyyətli məhsula aiddir. Saxta, ucuz, tərkibində palma yağı, kimyəvi qatqılar və s. ziyanlı maddələr olan dondurma sağlamlığa yalnız ziyan vura bilər.

Dondurmanın xeyri və zərərləri haqqında nə qədər danışılsa da, heç kim bu soyuq və dadlı təamdan vaz keçə bilmir. Düzgün olmayan və antisanitariya şəraitində satılan dondurmalar asanlıqla yararlı qida məhsulundan təhlükəli məhsula çevrilə bilir. Bu baxımdan, yuxarıda qeyd etdiyimiz məqamlara diqqət etməkdə fayda var. Bəs, keyfiyyətli dondurmanı necə seçmək olar?

**Acı dadı varsa...**

Sualımızı cavablandıran Azad İstehlakçılar İctimai Birliyinin (AİİB) sədri Eyyub Hüseynov "Yeni Azərbaycan"a açıqlamasında qeyd edib ki, dondurmalar süd məhsulu olaraq təhlükəli məhsullar sırasına daxildir. Onun sözlərinə görə, isti aylarda ən çox gəlir gətirən sahələrdən biri də dondurma ticarətidir: "Dondurma tez həzm olunan süd məhsuludur. Bütün dondurmaların istehsalında kərə yağından istifadə edilir. Bəzi hallarda kakos yağından da istifadə edilə bilər. Dondurmanın dadında acılıq hiss olunursa, yaxud boğazda acılıq yaranırsa, bu, o deməkdir ki, hazırlanarkən ya vaxtı keçmiş, ya da turşumuş kərə yağından istifadə edilib. Yaxud da bitki yağı ilə hazırlanıb. Bu, yararsız dondurma hesab edilir. Hazırda ölkədə 27-dən çox dondurma istehsalçısı var ki, onlardan bəziləri kiçik sexlərdir".



**Maksimum 10 ay...**

Birlik sədrinin sözlərinə görə, dondurma maksimum 10 ay müddətinə istifadə edilməlidir: "Bu gün ölkəyə xaricdən dondurmalar gətirilir ki, 1 ilə qədər yararlıq müddəti var. Belə hallar süd məhsulu üçün arzuolunan deyil. Xaricdən gətirilən dondurmalar daha təhlükəli hesab edilir. Çünki onlar daşınma zamanı müəyyən temperatur riskinə məruz qalırlar".

**1500 manat cərimə**

E.Hüseynov qeyd edib ki, əgər dondurma əvvəl istiyə məruz qalıb, sonra yenidən dondurulursa, satışı qadağan olunmalıdır: "Belə məhsul satan şəbəkəni minimum 1500 manat cərimə gözləyir. Vətəndaşların bu cür şübhəli vəziyyətlər zamanı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) qaynar xəttinə məlumat verməyə çağırıram".

**Bu dondurmalardan uzaq durun!**

AİİB sədri vurğulayıb ki, açıq şəkildə satılan dondurmalardan mümkün qədər uzaq durmaq lazımdır. Çünki adətən vaxtı keçmiş dondurmalar açıq şəkildə satılır və onun istehsal tarixi haqqında məlumat əldə etmək mümkün olmur: "Hətta bəzi sexlər var idi ki, yanvar ayından dondurma istehsalına başlayıb, qablaşdırmanın üzərində aprel ayını qeyd edərək satışa veriblər".

**Dondurma qabı əzilibsə...**

E.Hüseynov bildirib ki, bir çox dondurma istehsal edən müəssisələr əhalinin xarici dondurmaya üstünlük verdiyini nəzərə alaraq xarici dondurmaların qablaşdırmasını imitasiya edərək yerli dondurmanı həmin qabda qablaşdıraraq satışa təqdim edirlər: "Bununla paralel satışda kifayət qədər köhnə dondurmalar var. Alarkən qablaşdırmaya fikir vermək lazımdır. Əgər qab əzilibsə, dondurma formasını itiribsə, bu, dondurmanın temperatur dəyişikliyinə məruz qaldığını göstərir. Vətəndaşların sağlamlığı öz əllərindədir. Dondurma alarkən onun hansı şəraitdə saxlanıldığına, məhsulda qeyd etdiyimiz keyfiyyətsizlik əlamətlərinin müşahidə edilib-edilmədiyinə fikir verməlidirlər".

***Yeganə BAYRAMOVA***

# Məktəblilərin Respublika İdman Olimpiadasına start verilir

Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və müvafiq idman federasiyalarının dəstəyi ilə ölkədə ilk dəfə məktəblilərin Respublika İdman Olimpiadası keçiriləcək.

Elm və Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, olimpiada məktəblilər arasında idmanın inkişafı, sağlam həyat tərzinin təşviqi, fiziki hazırlığın yüksəldilməsi və istedadlı gənclərin üzə çıxarılması məqsədi daşıyır.

İştirakçılar ağırlıqqaldırma, atletika, badminton, basketbol, boks, cüdo, yunan-Roma güləşi, sərbəst güləş, bədii gimnastika, stolüstü tennis, taekvondo və velosiped idman növləri üzrə yarışacaqlar. Ümumilikdə ölkəmizin 59 rayon və şəhərini 2000-dən çox məktəbli təmsil edəcək. Olimpiadada iştirak edəcək məktəblilər Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin tabeliyində, həmçinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərinin yetirmələridir.

Məktəblilərin Respublika İdman Olimpiadasının açılış mərasimi iyunun 20-də Bakı Kristal Zalında keçiriləcək. Yarışlar iyunun 21-26-da baş tutacaq.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5361**
**Sifariş: 734**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova